HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 34 (674) ■ 4 sentyabr 2013 www.vergiler.az Qiymәti: 40 qәp.

# Prezident İlham Əliyevin Sabirabad, Saatlı və Ağcabədi rayonlarına səfəri

Azərbaycan Prezidenti İlham Əliyev avqustun 29-da Sabirabad rayonuna səfər etmişdir. Ümummilli lider Heydər Əliyevin Sabirabad şəhərinin mərkəzi meydanındakı abidəsini ziyarət edən dövlətimizin başçısı sonra Yeni Azərbaycan Partiyası (YAP) Sabirabad rayon təşkilatının yeni inşa olunmuş inzibati binasının açılışında iştirak etmiş, Heydər Əliyev prospektində yerləşən 1200 şagird yerlik M.Ə.Sabir adına 1 nömrəli tam orta məktəbin yeni binasında yaradılan şəraitlə tanış olmuşdur.

Sonra Heydər Əliyev Mərkəzinin açılışında iştirak edən Prezident İlham Əliyevə mərkəzin yerləşdiyi Heydər Əliyev adına istirahət parkında yaradılan şəraitlə tanış olmuşdur.

Hacıqabul-Bəhrəmtəpə avtomobil yolunun Hacıqabul-Sabirabad hissəsinin açılışında da iştirak edən dövlətimizin başçısına bu infrastruktur obyekti barədə məlumat verilmişdir. Bildirilmişdir ki, yolun yenidən qurulması ilə yanaşı, Kür çayı ilə kəsişməsində yeni körpünün tikintisi nəzərdə tutulmuşdur. Ümumilikdə bu layihə çərçivəsində yol üzərində 4 körpünün, 5 piyada keçidinin, 68 suötürücü borunun, 26 avtobus dayanacağının inşası planlaşdırılmışdır.

Həmin gün Prezident İlham Əliyev Sabirabadda müasir istixana kompleksinin açılışında iştirak etmişdir. Dövlətimizin başçısına məlumat verilmişdir ki, Sabirabad rayonunun Kürkəndi kəndində inşa olunan kompleksin illik istehsal gücü 1,3 min tondur. Ərazisi 3,2 hektar olan istixana kompleksinin tikilməsinə 2,6 milyon manat investisiya qoyulmuşdur. İstixana kompleksi Hollandiya, İtaliya və Türkiyənin texnologiyaları əsasında qurulmuşdur. Layihələrin icrası nəticəsində 55 nəfər yeni iş yerləri ilə təmin olunmuşdur.

Rayon ictimaiyyətinin nümayəndələri ilə görüşən Prezident İlham Əliyev bildirmişdir ki, Sabirabad şəhəri müasir görkəm alır, müasirləşir, abadlaşır, gözəl binalar, məktəblər, xəstəxana tikilir. Ancaq hələ görülməsi işlər çoxdur. Növbəti illərdə görüləsi işlər arasında xüsusi əhəmiyyət daşıyan su layihəsi olacaqdır. Bu ilin sonunda və ya gələn ilin əvvəlində Sabirabadın içməli su ilə təminatını təşkil etmək üçün böyük layihə başlanacaqdır.

Sabirabada səfərini başa çatdıraraq Saatlı rayonuna gələn Azərbaycan Prezidenti əvvəlcə ümummilli lider Heydər Əliyevin Saatlı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, Bayraq Meydanı və Muzeyi ilə tanış olmuş, Saatlı Olimpiya İdman Kompleksinin açılışında da iştirak etmişdir. Qeyd olunmuşdur ki, kompleksdə bir çox yarışların, təlim-məşq toplanışlarının və digər tədbirlərin keçirilməsi üçün hər cür şərait vardır. Türkiyə istehsalı olan hovuz sistemi və «Gonka Klima» markalı xüsusi nəmalma qurğusu quraşdırılmışdır. İki yüz yerlik zalda iki soyunub-geyinmə, duş otaqları vardır. Kompleksin ərazisində ikimərtəbəli beş kottec inşa edilmişdir. Hər kottec dörd nəmrədən ibarətdir. Bu ilin sonunadək 900 yerlik açıq stadion, tennis kortu, basketbol meydançasının tikintisi yekunlaşacaqdır.

Saatlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşən Prezident İlham Əliyev rayonun inkişaf etdiyini, bütün problemlərinin həll olunacağını, digər məsələlərin həlli üçün əlavə vəsaitin ayrılacağını bildirmişdir. Saatlıda qazlaşdırma layihəsinin daha sürətlə icra edilməsi üçün müvafiq orqanlara tapşırıqlarını vermişdir.

Saatlı rayonuna səfəri çərçivəsində Qarayevkənd-Sımadakənd avtomobil yolunun açılış mərasimində iştirak edən Azərbaycan Prezidenti sonra Ağcabədi rayonuna gəlmişdir. Dövlətimizin başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin Ağcabədi şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, Yeni Azərbaycan Partiyası Ağcabədi rayon təşkilatının yeni inzibati binasının açılış mərasiminə qatılmışdır. Ağcabədi Rayon Mərkəzi Xəstəxanasının yeni binasının açılışında iştirak edən dövlətimizin başçısına bildirilmişdir ki, bu səhiyyə müəssisəsi inkişaf etmiş ölkələrdə olan xəstəxanalardan geri qalmır. Burada ən müasir avadanlıq quraşdırılmışdır. Ağcabədi rayonunun inkişafı məqsədilə bütün tədbirlərin görüləcəyini bildirən Prezident İlham Əliyev digər layihələrin icrası üçün büdcədən və digər mənbələrdən vəsaitlərin ayrılacağını diqqətə çatdırmışdır. Qeyd olunmuşdur ki, növbəti illərdə bu istiqamətdə işlər davam etdiriləcək, bütün infrastruktur layihələri tam şəkildə icra ediləcək, o cümlədən içməli su, qazlaşdırma layihələri, kənd yollarının tikintisi davam etdiriləcəkdir.



Dövlətimizin başçısı daha sonra Ağcabədidə Gənclər Mərkəzinin açılışında iştirak etmiş, «Aqat-aqro» heyvandarlıq kompleksinin istifadəyə verilməsi mərasiminə qatılmışdır. Bildirilmişdir ki, «Aqat-aqro» heyvandarlıq kompleksi regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının həyata keçirilməsinin bəhrəsidir. Ağcabədi rayonunun Ağabəyli kəndində yaradılan kompleksin ümumi sahəsi 50 hektardır. Kompleks üç min başlıq iribuynuzlu heyvandarlıq və iki min başlıq keçi təsərrüfatından ibarətdir. Kompleksə hər biri gündəlik 25 litrdən çox südvermə qabiliyyətinə malik 1500 baş «Holstein Friesian» cinsindən olan inəklər gətirilmişdir. İndi heyvanların sayı 2600 başa çatdırılmışdır. Payız aylarında əlavə 600 baş gətirilməsi nəzərdə tutulmuşdur. Bir neçə ildən sonra heyvanların baş sayı 10 minə çatdırılacaqdır. Kompleksdə illik 22,8 min ton süd istehsalı nəzərdə tutulur ki, bu da illik emal gücü 90 min ton olan «Atena» süd emalı zavodunun xammala tələbatının təmin edilməsinə imkan verəcəkdir. Gələcəkdə «Atena» zavodu Fransanın «Danone» şirkəti ilə birgə süd məhsulları istehsal edəcəkdir. Həmin məhsulların xarici ölkələrə ixracı da nəzərdə tutulur. Heyvandarlıq kompleksində 95 nəfər daimi iş yeri ilə təmin olunmuşdur. Təsərrüfat tam istifadəyə verildikdən sonra isə işçilərin sayının 100-dək artırılacağı nəzərdə tutulur.

# İlk biometrik pasport ölkə başçısına təqdim olundu

*Sentyabrın 2-də Azərbaycan Respublikası vətəndaşının ilk biometrik pasportunun təqdimat mərasimi keçirilmişdir. İlk biometrik pasport Prezident İlham Əliyevə təqdim edilmişdir.*

Mərasimdə qeyd olunmuşdur ki, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 fevral tarixli sərəncamı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasının biometrik eyniləşdirmə sisteminin yaradılması üzrə 2007-2012-ci illər üçün Dövlət Proqramı»nın, həmçinin «Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında» Azərbaycan Respublikası Qanununda dəyişikliklər edilməsi barədə» 2012-ci il 17 iyul tarixli 686 nömrəli fərmanın tələblərinin vaxtında təmin edilməsi məqsədilə bir sıra təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir.

Bildirilmişdir ki, şəxsiyyəti təsdiq edən sənədlərin verilməsini tənzimləyən normativ hüquqi baza təkmilləşdirilmiş, ümumvətəndaş, xidməti və diplomatik pasportların təsviri, spesifikasiyası və nümunələri Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 17 iyul tarixli 687 nömrəli fərmanı ilə təsdiq edilmişdir. Şəxsiyyəti təsdiq edən yeni nəsil biometrik sənədlərin tətbiqi məqsədilə İqtisadi İnkişaf Nazirliyi tərəfindən aidiyyəti dövlət orqanlarının mütəxəssislərindən ibarət İşçi Qrup yaradılmış, bu sahədə beynəlxalq səviyyədə tanınmış şirkətlərin təcrübəsi və əldə olunan nailiyyətlər öyrənilmiş, pasportların təsviri və spesifikasiyası hazırlanmışdır. Ümumvətəndaş pasportlarının hazırlanması və verilməsi məqsədilə 9 regional mərkəz yaradılmışdır. Bu mərkəzlərdə xidmət üçün ən yüksək şərait vardır. Beləliklə, vətəndaşlar ödədikləri dövlət rüsumunun məbləğindən asılı olaraq on, beş və bir iş günü ərzində ümumvətəndaş pasportları ilə təmin oluna biləcəklər.

# Yeni tunellərin açılışı olmuşdur

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Bakıda «Qələbə meydanı» müxtəlif səviyyəli tunel tipli yol qovşağı» layihəsi çərçivəsində inşa edilən beş tunelin açılış mərasimində iştirak etmişdir.*

Dövlətimizin başçısına layihə barədə məlumat verilmişdir ki, ərazidə 16 giriş-çıxışlı, ümumi uzunluğu 2 min 512 metr, eni 8-15,5 metr, hündürlüyü 5,5 metr, hərəkət zolaqlarının sayı isə 5 olan 6 tunel tipli yol qovşağı inşa edilmişdir. Tunel tipli yol qovşaqları Atatürk və Vaqif prospektlərini, həmçinin Atatürk prospekti ilə Əhməd bəy Ağaoğlu küçəsi vasitəsilə Təbriz prospektini birləşdirir. Əlavə olaraq, Təbriz küçəsindən gələn avtomobillər Gənclik dairəsinə daxil olmadan birbaşa tunel vasitəsilə Dərnəgül şosesinə çıxa biləcəkdir. Həmçinin Fətəli xan Xoyski prospektinə qısa döngələrlə istiqamətlənmək mümkün olacaqdır. Vaqif prospektindən gələn avtomobillər Fətəli xan Xoyski prospektinin altından keçərək Atatürk prospektinə çıxacaq və bu istiqamətdən Həsən Əliyev prospektinin üstündən keçəcəklər.

Qeyd edilmişdir ki, layihə üzrə tikintisi nəzərdə tutulan yolların ümumi sahəsi 110 min kvadratmetrdir. «Qələbə meydanı» adlanan ərazidə hərəkət intensivliyi saatda 2 min 340 avtomobildən 11 min avtomobilədək artacaqdır. Vaqif prospektində inşa edilən yol qovşağı metronun «Gənclik» stansiyasının tuneli üzərindən keçir. Tunellər beynəlxalq standartlara uyğun layihələndirilmiş və 9 ballıq zəlzələyə davamlılığı nəzərdə tutulmuşdur. Tunelin daxili işıqlandırma sistemi dünyada keyfiyyət, səmərəlilik, təhlükəsizlik və uzunömürlülük baxımından özünü təsdiqləmiş və yarımkeçirici diodlar əsasında işləyən ən müasir işıqlandırma sistemidir. Tunellərin yan divarlarında və tavanda 9 min kompyuterlə idarə olunan LED işıqlar quraşdırılmışdır. Tavanda quraşdırılan 3 minə yaxın projektor gündüz, gecə və qəza rejimlərində işləyir. İstifadəyə verilən tunellərdə Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi tərəfindən idarə edilən elektron informasiya tablosunun köməyi ilə nəqliyyatın cari vəziyyəti haqqında məlumatlar təhlil edilərək sürücülərə çatdırılacaqdır.

Görülən işləri yüksək qiymətləndirən Prezident İlham Əliyev üç il ərzində böyük işlərin görüldüyünü, şəhər infrastrukturunun yeniləşdiyini vurğulamış, gələcəkdə görüləsi işlərin hələ çox olduğunu qeyd etmişdir.

# Binəqədidə iki məktəb binası əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilmişdir

*Azərbaycan Prezidenti İlham Əliyev avqustun 30-da Binəqədi rayonundakı 135 və 248 nömrəli orta məktəblərin binalarının əsaslı təmir və yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olmuşdur.*



Dövlətimizin başçısına bildirilmişdir ki, Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər ardıcıl olaraq həyata keçirilir. Yeni dərs ili ərəfəsində respublikanın hər yerində olduğu kimi, paytaxtda və eləcə də ətraf qəsəbələrdə orta məktəb binaları müasir standartlar çərçivəsində yenidən qurulur və lazımi avadanlıqla təchiz edilir. Təhsil müəssisələrinin ərazilərində abadlıq işləri həyata keçirilir, yaşıllıq zolaqları salınır.

Bildirilmişdir ki, hər iki məktəbdə əsaslı təmir və yenidənqurma işləri yüksək standartlara uyğun şəkildə həyata keçirilmişdir. Məktəbin elektrik və kommunikasiya xətləri yenilər ilə əvəz olunmuş, müasir istilik sistemi quraşdırılmışdır. 1020 şagird yerlik 135 nömrəli məktəbdə bütün sinif otaqları, idman və iclas zalları, yeməkxanası tam təmir olunmuş, həyətdəki açıq idman meydançası əsaslı şəkildə yenidən qurulmuşdur. Məktəbdə dərslər bir növbədə aparılacaqdır. 1020 şagird yerlik 248 nömrəli orta məktəbdə isə 41 sinif otağı vardır. Dərslər bir növbədə keçirilir. Bütün sinif otaqları, fənn kabinetləri, idman və iclas zalları yüksək standartlar səviyyəsində təmir edilmişdir. Məktəbin işıq və istilik sistemi ən müasir tələblər səviyyəsindədir. Bu təhsil müəssisəsinin həyətindəki açıq idman meydançası da yenidən qurulmuşdur. Ərazidə abadlıq və quruculuq işləri həyata keçirilmişdir.

2 Azad biznesə geniş meydan

3 Vergi qanunvericiliyi ödəyicilərin mənafeyinə xidmət edir

4 Əmək pensiyalarının baza hissəsi artırıldı

5 «BBB+» reytinqi Azərbaycanın Avropa bazarlarına çıxışına güclü zəmin yaradır

# Nüfuzlu «BizNewsAsia» jurnalı Azərbaycan Prezidenti İlham Əliyevi «İlin adamı» elan etmişdir

*Filippində nəşr olunan və Asiya qitəsinin inkişaf etmiş ölkələrində həyata keçirilən uğurlu islahatları, dövlət başçılarının fəaliyyətini əks etdirən, geniş oxucu kütləsinə malik «BizNewsAsia» jurnalı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi «İlin adamı» elan etmişdir.*

Jurnalın avqust buraxılışında «İlham Əliyev: İlin adamı», «Əliyev erası: Azərbaycanın qızıl dövrü», «İlham Əliyev builki prezident seçkilərində Yeni Azərbaycan Partiyasının namizədidir», «Sosial təminatlar və yüksək maaşlar Azərbaycanda yoxsulluğu azaltmışdır», «Dünya Bankının Azərbaycana sualı: yoxsulluğun azaldılmasına necə nail olmaq mümkündür?», «İqtisadiyyatın şaxələndirilməsi yolları» və digər məqalələr dərc olunmuşdur.




Məqalələrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyəti və onun rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə həyata keçirilən uğurlu islahatlar, əldə olunan nailiyyətlər haqqında ətraflı məlumat verilir. Həmçinin dövlətimizin başçısının ilk dəfə prezident seçildiyi 2003-cü illə müasir dövr müqayisə edilir və ötən illər ərzində əldə edilmiş uğurlardan ətraflı bəhs olunur.

Prezident İlham Əliyevin zəngin ictimai-siyasi və dövlətçilik fəaliyyətinin də yer aldığı yazılarda ötən on ildə Azərbaycanın daxili və xarici siyasət sahəsində qazandığı uğurlar konkret faktlar əsasında şərh edilir. Bildirilir ki, bu uğurlara Azərbaycan Prezidentinin dövlətçilik bacarığı və rəhbərlik qabiliyyəti sayəsində nail olunmuşdur. Məhz İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan dünyada özünəməxsus yer tutmuşdur.

Nəşrdə Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyatın modernləşdirildiyi, işsizlik və yoxsulluq probleminin aradan qaldırıldığı diqqətə çatdırılır. Qeyd edilir ki, dünyanı bürümüş iqtisadi böhran Azərbaycana heç bir təsir göstərməmişdir. Ölkədə istər enerji sahəsində, istərsə də qeyri-neft sektorunda, xüsusilə də təhsil, səhiyyə, informasiya-kommunikasiya texnologiyaları, kənd təsərrüfatı sahələrində uğurlu islahatlar həyata keçirilir. Bu ilin əvvəlində Azərbaycan orbitə ilk telekommunikasiya peykini buraxmaqla kosmik ailənin üzvünə çevrilmişdir.

Azərbaycanda qanunun aliliyinin təmin edilməsi, insanların hüquq və azadlıqlarının qorunması istiqamətində xeyli işlər görüldüyünü qeyd edən jurnal oxucuların diqqətinə onu da çatdırır ki, dünya dövlətləri üçün tolerantlıq nümunəsi olan Azərbaycanda müxtəlif millətlərin və dinlərin nümayəndələri sülh, qarşılıqlı anlaşma şəraitində yaşayırlar. Böyük enerji resurslarına malik olan Azərbaycan dünyada həm də zəngin mədəniyyəti və qədim tarixi ilə tanınır. Şərqdə ilk demokratik respublika 1918-ci ildə məhz Azərbaycanda yaradılmışdır.

Nəşrdə bildirilir ki, Azərbaycan daxili siyasətdə olduğu kimi, xarici siyasətdə də xeyli nailiyyətlər əldə etmişdir. Bu ölkə beynəlxalq və regional təşkilatların fəal üzvüdür. Azərbaycan diplomatiyasının ən böyük uğuru isə ölkənin BMT-nin Təhlükəsizlik Şurasının üzvü seçilməsidir.

Jurnalda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında da ətraflı məlumat verilir. Qeyd edilir ki, Ermənistan Dağlıq Qarabağı və ona bitişik yeddi rayonu işğal etmişdir. Bu gün Azərbaycan torpaqlarının 20 faizi işğal altındadır, bir milyondan artıq azərbaycanlı isə öz ölkəsində qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Ermənistanın işğalçılıq siyasəti mötəbər beynəlxalq qurumlar tərəfindən qəbul edilmiş qətnamə və qərarlarda dəfələrlə pislənmişdir. Rəsmi Yerevan isə bu sənədlərə məhəl qoymur. ATƏT-in Minsk qrupunun münaqişənin həlli istiqamətində göstərdiyi səylər hələ də heç bir nəticə vermir.

Hakim Yeni Azərbaycan Partiyasının keçdiyi yol, respublikanın ağır vəziyyətində bu partiyanı yaradan ümummilli lider Heydər Əliyevin gərgin əməyini ətraflı işıqlandıran jurnal yazır ki, müstəqil Azərbaycan dövlətinin qurulması bu böyük siyasətçinin adı ilə bağlıdır. 1990-cı illərin əvvəllərində çətin günlər keçirən Azərbaycanda məhz onun rəhbərliyi altında sabitlik bərqərar olmuş, bütün sahələrdə köklü islahatlar həyata keçirilməyə başlanmış, ölkənin xarici əlaqələri genişlənmişdir.

Bakının bir sıra mötəbər forumlara, nüfuzlu konfranslara, simpoziumlara, müsabiqələrə yüksək səviyyədə ev sahibliyi etdiyini vurğulayan jurnal Prezident İlham Əliyevin dünya dövlətlərinin liderləri ilə keçirdiyi görüşləri, eləcə də Azərbaycanda aparılan genişmiqyaslı abadlıq-quruculuq işlərini əks etdirən çoxsaylı şəkillərə də yer vermişdir.

Azərbaycanın vergi sistemi: 2003-2013

# İdarəetmədə səmərəliliyi təmin edən struktur islahatları

*Azərbaycanda liberal vergi siyasətinin formalaşması, vergi öhdəliklərinə könüllü əmələtmə səviyyəsinin ildən-ilə yüksəlməsi, habelə vergi ödəyicilərinin mənafeyinə cavab verən əlverişli biznes mühitinin formalaşdırılması, ilk növbədə, Vergilər Nazirliyinin yaradılması və sonrakı mərhələdə strukturunun təkmilləşdirilməsi tədbirləri ilə sıx şəkildə bağlıdır.*

«Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik» tezisi ilə verginin iqtisadi siyasətdə aparıcı rolunu önə çəkən ümummilli lider Heydər Əliyevin hələ 11 fevral 2000-ci il tarixdə imzaladığı fərmanla Baş Dövlət Vergi Müfəttişliyinin bazasında Vergilər Nazirliyi yaradılmışdır. Yeni idarəetmə modelinin qurulması məqsədilə 2002-ci ildən vergi sistemində geniş struktur islahatları həyata keçirilmişdir. Belə ki, təşkilati-idarəetmə mexanizminin təkmilləşdirilməsi məqsədilə respublikanın ərazisində, ümumilikdə, 62 rayon və şəhər vergi orqanları ləğv edilmişdir. Onların əvəzində ayrı-ayrılıqda bir neçə rayon və şəhəri əhatə edən 12 Ərazi Vergilər İdarəsi yaradılmışdır. Eləcə də Bakı şəhərinin Baş Vergilər İdarəsi və paytaxtın 11 rayonu üzrə vergi idarələri ləğv edilərək, əvəzində Bakı Şəhər Vergilər Departamenti və onun 3 filialı təşkil edilmişdir.

Struktur islahatları sahəsində əldə olunan mühüm nailiyyətlər sırasında vergi sisteminin təkmilləşdirilməsi və vergi inzibatçılığının sadələşdirilməsi tədbirləri mühüm yer tutur. «Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi Dövlət Proqramı»nın (2005-2007-ci illər) əsasında üç il ərzində 5 əsas strateji istiqaməti əhatə edən 39 irimiqyaslı tədbir reallaşdırılmışdır. Vergilərin məcburi ödənilməsi sistemi təkmilləşdirilərək vergi borclarının yaranmasının qarşısı alınmış, vergi orqanlarında beynəlxalq standartlara uyğun idarəetmə sistemi inkişaf etdirilmiş, müasir informasiya-kommunikasiya sistemləri yaradılmışdır.

Prezident İlham Əliyevin 2005-ci il 21 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)» əsasında 2006-cı ildən Vergilər Nazirliyi sistemində vergi inzibatçılığı proseslərinin elektron qaydada aparılmasına imkan verən «Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi» (AVİS) tətbiq edilmişdir. AVİS layihəsinin əsas məqsədi çevik və səmərəli vergi siyasətinin həyata keçirilməsinə fəal texnoloji dəstəyin təmin edilməsidir. Bu yenilik yerli vergi orqanlarının işlərinin avtomatlaşdırılmasına, digər dövlət orqanları ilə inteqrasiyanın təminatına, müxtəlif iqtisadi təhlil və proqnozların həyata keçirilməsinə imkan vermişdir. Bu sistem, eyni zamanda, vergi xidməti strukturları arasında informasiya mübadiləsini, məlumatların işlənməsini, bəyannamələrin qəbulunun və qeydiyyatının sürətləndirilməsini, sənədlərin sistemdaxili dövriyyəsinin tam şəkildə elektron varianta keçirilməsini xeyli gücləndirmişdir.

Vergi nəzarətinin təkmilləşdirilməsi, inzibatçılıqda müasir idarəetmə prinsiplərinin tətbiqi məqsədi ilə 19 mart 2009-cu ildə Bakı Şəhər Vergilər Departamentinin Audit və Operativ nəzarət idarələri ləğv edilmiş, onların əsasında Vergilər Nazirliyi yanında Vergi Auditi Departamenti yaradılmışdır.

Vergilərin könüllü ödənilməsi sisteminin təkmilləşdirilməsi, sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılması istiqamətində mühüm addımlardan biri də vergi ödəyiciləri üçün xidmət mərkəzlərinin yaradılması olmuşdur. 2007-ci ildən bəri Vergilər Nazirliyi tərəfindən əsasən regionlarda, xüsusilə də vergi orqanı olmayan iri şəhər və rayonlarda 40 belə mərkəz istifadəyə verilmiş, onlar müasir kompüter və kompüter avadanlıqları, sürətli kommunikasiya sistemi ilə təchiz edilmişdir. Xidmət mərkəzlərinin fəaliyyəti vergi orqanları tərəfindən həyata keçirilən yoxlama-nəzarət, təhlil və təhqiqat, məcburi alınma prosesləri istisna olunmaqla, vergi ödəyicilərinə göstərilən xidmətlərin bütün spektrini əhatə edir.

Vergi inzibatçılığının səmərəliliyinin artırılması, funksional cəhətdən təkrarlanmanın aradan qaldırılması məqsədi ilə 2010-cu ildə Bakı şəhəri üzrə bəyannamələrin kameral yoxlanması, vergi borclarının alınması və vergi ödəyicilərinə xidmət strukturları tamamilə yeni əsasda formalaşdırılmışdır. Bu məqsədlə hələ Bakı Şəhər Vergilər Departamentinin 2002-ci ildə təsis olunan 1, 2 və 3 saylı filialları ləğv edilmiş, onların əsasında həmin departamentin Vergi borclarının məcburi alınması, Bəyannamələrin qəbulu və işlənməsi, habelə Vergi ödəyicilərinə xidmət idarələri yaradılmışdır.

***Struktur islahatları sahəsində əldə olunan mühüm nailiyyətlər sırasında vergi sisteminin təkmilləşdirilməsi və vergi inzibatçılığının sadələşdirilməsi tədbirləri mühüm yer tutur***

Struktur islahatları 2013-cü ilin müvafiq dövründə də uğurla davam etdirilmiş, bir sıra ərazi vergilər idarələri ləğv edilərək onların bazasında ərazi vergilər departamentləri (2, 11 və 12 saylı ƏVD) yaradılmışdır.

Həyata keçirilən struktur islahatları nəticəsində Vergilər Nazirliyi beynəlxalq maliyyə institutları və iqtisadi inkişaf təşkilatları tərəfindən yüksək qiymətləndirilən, müasir normativ-hüquqi, maddi-texniki baza ilə təmin olunan vergi inzibatçılığına əsaslanan instituta çevrilmişdir.

**S.MUSTAFAYEV**

# Azad biznesə geniş meydan

## *Sahibkarların maraqlarının müdafiəsi ilə bağlı tədbirlər davam etdirilir*

*Məlum olduğu kimi, Prezident İlham Əliyev «Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Qanunun tətbiqi barədə fərman imzalayıb.*

Sənəd sahibkarlıq sahəsində aparılan yoxlamaların məqsəd və prinsiplərini, təşkili və aparılması qaydalarını, yoxlamalar zamanı yoxlayıcı orqanların, onların vəzifəli şəxslərinin hüquq və vəzifələrini, sahibkarların hüquq və maraqlarının müdafiəsi ilə bağlı tələbləri müəyyən edir. Bir sözlə, sahibkarlıqla məşğul olan insanların fəaliyyətinə geniş şəraitin yaradılması, onlara maneçilik törədən bütün məsələlərin həlli ilə bağlı təsirli və operativ tədbirlərin görülməsinə dair məsələlər qanunda əksini tapıb.

Qanunda əsas istiqamətlərdən biri sahibkarlıq sahəsində aparılan yoxlamalarla bağlı yeni meyarlardır. Belə ki, yoxlayıcı orqan tərəfindən sahibkarlara kömək göstərilməsi yolu ilə insanların həyat və sağlamlığının, ətraf mühitin və dövlətin maraqlarının təhlükəsizliyinin təmin edilməsi başlıca şərtlərdən hesab olunur. Yoxlamalar zamanı ədalətliliyin, obyektivliyin, aşkarlıq və hesabatlılığın qorunması da vacib meyarlardandır. Yeni qaydalara görə, sahibkarın yoxlama ilə bağlı olmayan fəaliyyətinə müdaxilə edilməsi, bir neçə orqan tərəfindən yoxlanılması yolverilməz hesab olunur. Əgər yoxlama zamanı sahibkara hər hansı bir zərər dəysə, yoxlayıcı orqanın və onun vəzifəli şəxsləri məsuliyyətə cəlb ediləcək. Məhz buna görə də yoxlama zamanı vəzifəli şəxslərin yüksək peşəkarlığının olması tələb kimi irəli sürülür.

Qanunda sahibkarlıq sektorunda qeydiyyat, yoxlamaların və digər əməliyyatların, eləcə də ödənişlərin elektronlaşdırılması da nəzərdə tutulub. Yoxlamalar haqqında tam və operativ məlumatın əldə olunması məqsədi ilə yoxlamaların vahid məlumat reyestrinin aparılması, elektron uçot sistemi, digər e-xidmətlər bu tədbirlər sırasındadır. Bu isə lisenziyalara və digər razılıqlara görə, rüsumların elektronlaşdırılması, ümumiyyətlə sahibkarlara aidiyyəti olan bütün strukturların fəaliyyətinin tamamilə e-xidmətlərə uyğun qurulmasının təmin edilməsi deməkdir.

İqtisadi İnkişaf Nazirliyindən (İİN) verilən məlumata görə, sahibkarların hüquqlarının qorunması və üzləşdikləri maneələrin aradan qaldırılması dövlətin müvafiq orqanlar qarşısında qoyduğu mühüm vəzifələr hesab olunur. Son illər sahibkarlıq fəaliyyəti növlərinin lisenziyalaşdırılmasının təkmilləşdirilməsi, sahibkarlığın inkişafına mane olan halların aradan qaldırılması üçün addımlar atılıb, bürokratik əngəllərə son qoyulub. Sahibkarlığın inkişafına dövlət qayğısının artırılması məqsədilə xüsusi icazə tələb edən fəaliyyət növlərinin sayı kəskin surətdə azaldılıb, lisenziya müddəti uzadılıb, lisenziya verilməsi prosesində dövlət orqanları tərəfindən sui-istifadə hallarına yol verməyən və bu sahədə şəffaflığı təmin edən qaydalar tətbiq edilib.

Hazırda ölkəmizdə yeni iqtisadi meyarlara uyğun islahatlar aparılır və dövlət-biznes münasibətləri yeni müstəvidə qurulmaqdadır. Bu tədbirlərin nəticəsi kimi sahibkarlar üçün lisenziyaların verilməsi, qrant müqavilələrinin alınmasının elektron qaydada aparılması, bu sahədə müvafiq rüsum və ödənişlərin elektronlaşdırılması həyata keçirilməkdədir. Yeni xidmətlər dövlət strukturlarının sahibkarlıq sektoruna müdaxiləsini tamamilə məhdudlaşdırır. E-xidmətlərin çeşidinin artırılmasında da məqsəd sahibkarlıq sektorunda şəffaf mexanizmlərin tətbiqinin genişləndirilməsidir.

İİN hesab edir ki, qanun birbaşa sahibkarların etibarlı müdafiəsi, azad biznesin inkişafı üçün geniş fəaliyyət meydanının yaradılması, dövlət-biznes münasibətlərinin yeni tələblərə uyğun qurulması baxımından mühüm əhəmiyyət kəsb edir. Yeni qaydaların mahiyyəti yoxlamalar şəffaflığın artırılması, sahibkarlıq bölməsində biznes mühitinin daha da yaxşılaşdırılmasından ibarətdir.

Sənədin əsas istiqamətlərindən biri, həmçinin, kiçik və orta sahibkarlığı inkişaf etdirmək, investisiya mühitini daha da yaxşılaşdırmaq, sahibkarlıq sektorunda şəffaflığı artırmağa xidmət edir.İqtisadçı ekspertlər qanunu ölkə iqtisadiyyatının və sahibkarlığın inkişafında yeni mərhələ açacaq vasitə kimi dəyərləndirirlər.

Ümumilikdə, yeni qanunun təsdiq olunması sahibkarların iqtisadi inkişafda rolunun daha da artmasına və azad biznesə əlverişli şərait yaratmaqla yanaşı, Azərbaycanın Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən hazırlanan növbəti «Doing Business» hesabatında biznesin idarə edilməsi, sahibkarlıq mühitinin vəziyyəti, rəqabətqabiliyyətlilik, investorların hüquq və maraqlarının qorunması və digər göstəricilər üzrə mövqeyinin daha da yaxşılaşmasına səbəb olacaq.

**Elbrus CƏFƏRLİ**

# Borclu vergi ödəyicilərinin əmlakı siyahıya alınmışdır

*Avqust ayının 27-də Vergilər Nazirliyinin 2 saylı Ərazi Vergilər İdarəsinin Vergi borclarının alınması şöbəsinin əməkdaşları tərəfindən Sumqayıt şəhəri, 17-ci mikrorayonda yerləşən, fiziki şəxs Süleymanov Vaqif Zöhrab oğluna məxsus «Büllur» restoranında əmlakın siyahıya alınması tədbirləri keçirilmişdir.*

İcarə müqaviləsi əsasında fəaliyyət göstərən fiziki şəxs V.Süleymanovun fəaliyyəti vergi orqanı əməkdaşları tərəfindən araşdırılarkən, cari ilin iyul ayında onun 7912 manat məbləğində vergi borcunun yarandığı müəyyən edilmiş, borcla əlaqədar ona bildiriş göndərilsə də bu məbləğ qanunvericilikdə nəzərdə tutulan müddətdə ödənilməmişdir. Vergi Məcəlləsinin 89-cu maddəsinə əsasən yaranmış vergi borcunun ödənilməsini təmin etmək üsulu kimi obyektdəki əmlakın siyahıya alınması haqqında Qərar çıxarılmış, vergi orqanı əməkdaşları tərəfindən obyektdəki 8100 manat dəyərində məişət avadanlığı və mebel qanunvericiliklə müəyyən olunmuş qaydada siyahıya alınmışdır.

Həmin gün Sumqayıt şəhəri, 40-cı məhəllədə yerləşən fiziki şəxs Cəfərov Etibar Loğman oğluna məxsus xırdavat mağazasında da əmlakın siyahıya alınması həyata keçirilmişdir. Vergi ödəyicisinin fəaliyyəti vergi orqanı əməkdaşları tərəfindən araşdırılarkən, onun 957 manat məbləğində vergi borcunun yarandığı müəyyən edilmiş, lakin borc məbləği qanunvericilikdə nəzərdə tutulan müddətdə ödənilməmişdir. Mağazadakı 900 manat dəyərində müxtəlif növ təsərrüfat malları müəyyən edilmiş qaydada siyahıya alınmışdır.

Daha sonra vergi orqanı əməkdaşları tərəfindən Abşeron rayonu, Mehdiabad qəsəbəsində yerləşən, fiziki şəxs Süleymanov Baba Süleyman oğluna məxsus tikinti materialları mağazasında da əmlakın siyahıya alınması həyata keçirilmişdir. Cari ilin iyul ayında ona 1276 manat məbləğində vergi borcunun ödənilməsi ilə bağlı bildiriş göndərilsə də, məbləği qanunvericilikdə nəzərdə tutulan müddətdə ödəmədiyindən, mağazadakı 980 manat dəyərində tikinti materialları müvafiq qaydada siyahıya alınmışdır.

# Vergi qanunvericiliyi ödəyicilərin mənafeyinə xidmət edir

## *Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər vergi ödəyicilərinin daha geniş fəaliyyət göstərməsinə əlverişli zəmin yaradır*

*Qlobal maliyyə böhranının acı fəsadlarını yaşayan Avropa Birliyi ölkələrində vergi qanunvericiliyinin dəyişdirilməsi vergi dərəcələrinin artırılmasına səbəb olduğu halda, respublikamızda belə bir tendensiya mövcud deyil. Azərbaycanın vergi siyasəti vergi orqanları qarşısında təkcə büdcə gəlirlərini təmin etməyi nəzərdə tutan fiskal məqsədlərə deyil, həm də ölkədə iqtisadi inkişafı sürətləndirmək, optimal vergitutma mexanizmi ilə əlverişli investisiya mühiti yaratmaq, sahibkarlığın inkişafını stimullaşdırmaq kimi mühüm vəzifələr qoymuşdur.*

### İqtisadiyyatın artım dinamikası qanunvericiliyə dəyişiklikləri labüd edir

Vergi Məcəlləsində əvvəllər tətbiq olunan 13 vergi növündən 9-u təsbit edilmiş, əksər vergi növləri üzrə dərəcələr aşağı salınmış, aksizə cəlb olunan malların siyahısı azaldılmışdır. Eyni zamanda, Vergi Məcəlləsində vergi sistemi, vergitutmanın ümumi əsasları, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydaları, vergi ödəyiciləri və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələri, vergi nəzarətinin forma və metodları, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət və digər qaydalar müəyyən edilmişdir.

Son 10 ildə mənfəət vergisinin dərəcəsi 27%-dən 20%-ə, ƏDV-nin dərəcəsi 20%-dən 18%-dək azaldılmış, fiziki şəxslərin gəlir vergisinin hesablanması mexanizmi sadələşdirilmişdir. Aqrar sektorun inkişafını stimullaşdırmaq məqsədilə kənd təsərrüfatı istehsalçıları, torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad edilmiş, fiziki şəxslərin əmanətləri üzrə ödənilən faiz məbləğlərindən gəlir vergisinin tutulmasına güzəştlər tətbiq edilmiş, bankların, sığorta və təkrarsığorta şirkətlərinin mənfəətinin nizamnamə kapitalının artırılmasına yönəldilmiş hissəsi mənfəət vergisindən azad olunmuşdur.

Azərbaycan iqtisadiyyatının mövcud artım dinamikası qanunvericiliyə əlavə və dəyişiklikləri labüd edir, vergi qanunvericiliyinin təkmilləşdirilməsini meydana çıxarır.

2013-cü il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə əlavə və dəyişikliklər paketini nəzərdən keçirdikdə dövlətimizin mütərəqqi vergi sisteminin formalaşmasında nə qədər maraqlı olduğu aydın görünür. Vergi Məcəlləsinə son əlavə və dəyişikliklər həm mahiyyəti, həm tətbiq dairəsi, həm də təqdim olunmuş güzəştlərin həcmi və kateqoriyaları baxımından son illərin ən geniş dəyişikliklər paketidir. Məcəllənin 63 maddəsinə 131 bənd üzrə 176 əlavə və dəyişiklik edilmişdir ki, bu da ümumilikdə sözügedən qanunvericilik aktının müddəalarının 30%-nə dəyişiklik olunması deməkdir. Son dəyişikliklərin tətbiqi ilə əlaqədar hazırda 35-dən yuxarı müxtəlif normativ-hüquqi sənədin hazırlanması prosesi gedir. Bu dəyişikliklərdə vergi qanunvericiliyinin beynəlxalq normalara uyğunlaşdırılması, habelə son bir neçə il ərzində qarşıya çıxan problemlərin həlli ilə bağlı məsələlər nəzərə alınmışdır.

### Əlavə və dəyişikliklər sahibkarlığın inkişafını stimullaşdırır

Dəyişikliklər vergi siyasətinin dörd istiqamətini əhatə edir: vergi ödəyicilərinin hüquqlarının müdafiəsi; vergi ödəyicilərinin mənafelərinin qorunması; vergi inzibatçılığının təkmilləşdirilməsi; vergi nəzarətinin təkmilləşdirilməsi.

Bunların sırasında Vergi Məcəlləsinə vergi orqanları ilə vergi ödəyiciləri arasında əməkdaşlıq münasibətlərinin qurulmasını təmin edən normaların daxil edilməsi xüsusi yer tutur. Bu, ölkəmizin təcrübəsində ciddi yenilik hesab olunur. Vergi tərəfdaşlığı sazişi - vergi orqanı ilə ödəyici arasında risklərin minimallaşdırılması məqsədi ilə könüllü şəkildə bağlanmış niyyət razılaşmasıdır. Bu, vergi inzibatçılığı prosesində vergi orqanları ilə ödəyici arasında münasibətlərin tamamilə yeni əsaslarda qurulması deməkdir.

Nazirlər Kabinetinin 2013-cü il 19 iyul tarixli qərarı ilə təsdiq edilmiş «Vergi partnyorluğu sazişinin forması» və «Vergi partnyorluğu sazişinin bağlanması qaydaları» bu istiqamətdə işlərin başlanmasına normativ-hüquqi zəmin yaradıb. «Vergi partnyorluğu sazişi forması»nın 1.3 bəndinə əsasən, partnyorluq sazişi sahibkarlığa lüzumsuz müdaxilələrin qarşısını almaqla onun inkişafını stimullaşdırmaq; əməkdaşlığa, qarşılıqlı etibarlılığa və şəffaf münasibətlərə əsaslanan birgə fəaliyyəti təmin etmək; müasir idarəetmə alətləri vasitəsilə biznes subyektlərini vergi orqanlarının fəaliyyətinə cəlb etmək; vergilərin ödənilməsi ilə bağlı könüllü əməletmə səviyyəsinin artırılması istiqamətində partnyorluq etmək; ədalətli, çevik, effektiv və səmərəli vergi nəzarəti yaratmaq; vergi risklərini minimallaşdırmaq məqsədi daşıyır.

Ümumilikdə, vergi partnyorluğu sazişinin reallaşdırılması, ilk növbədə, Azərbaycanda biznes mühitinin liberallaşdırılması tədbirlərinin davamlı səciyyə daşıdığını göstərir.

### Mütərəqqi vergi siyasəti öz bəhrəsini verir

Mütəxəssislərin qənaətinə görə, Vergi Məcəlləsinə cari il üçün edilmiş dəyişikliklər təkcə vergi ödəyicilərinin mənafelərinin qorunması və hüquqlarının artırılması baxımından deyil, həm də bütövlükdə iqtisadiyyatın perspektiv inkişaf prosesinin stimullaşdırılması və vergi inzibatçılığı sahəsində innovasiya yönümlü intellektual texnologiyaların inkişafı və tətbiqi baxımından da böyük əhəmiyyət kəsb edir.

Millət vəkili Çingiz Qənizadənin sözlərinə görə, ölkəmizdə vergi sisteminin yeniləşməsi uğurlu iqtisadi siyasətdə öz mühüm töhfəsini verir.

Vergilər Nazirliyinin vergi inzibatçılığının təkmilləşdirilməsi, elektron xidmətlər, «195» Çağrı Mərkəzi, elektron qeydiyyat, sahibkarların mənafelərinin qorunmasına səbəb olan yeni xidmət növləri və digər sahələr üzrə gördüyü işləri təqdir etdiyini bildirən millət vəkili bunların uzun illər ərzində həyata keçirilən gərgin əməyin, məqsədyönlü islahatların sayəsində əldə edildiyini vurğulayıb: «Mən xüsusilə qeyd etmək istəyirəm ki, Vergilər Nazirliyində peşəkar kadr resurslarının olması bu işlərin uğurla nəticələnməsinə öz töhfəsini verir. Bu bir daha onu göstərir ki, nazirlik insan resurslarının, güclü kadr potensialının formalaşmasına xüsusi diqqət yetirir, bu istiqamətdə davamlı işlər görür».

**Rəşad SADIQOV**



Akif Musayev
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin
Vergi siyasəti və strateji araşdırmalar
Baş İdarəsinin rəisi

Rakurs

# İqtisadi fikir tarixində mükəmməl vergi sistemi

Əslində, heç kim vergi ödəməkdən zövq almır, lakin sosial rifah üçün onların ödənilməsi qaçılmazdır. Müasir cəmiyyətdə vergiləri onlara ehtiyac duyulduğu üçün icbari formada deyil, ictimaiyyətin qəbul edəcəyi bir şəkildə tətbiq etmək lazımdır. XIV əsrdə Böyük Britaniyada adambaşına vergi tətbiq edilərkən kəndlilərin üsyanı baş vermişdi. Tarixən belə reaksiyaların baş verməsi vergitutmanın ədalətli şəkildə formalaşması zərurətini yaradır. Hələ XVIII əsrdə məşhur iqtisadçı A.Smit ədalətli vergi sisteminin əsas əlamətləri kimi aşağıdakıları qeyd etmişdir:

- Verginin miqdarı insanın ödəmə qabiliyyətini əks etdirməlidir,
- Konkret olmalıdır,
- Ödənişi rahat olmalıdır,
- İnzibati cəhətdən səmərəli olmalı və iqtisadi təhrifə səbəb olmamalıdır.

Əslində, bu prinsiplər indi də öz dəyərini saxlamaqdadır və müasir vergi sistemində ideal vergi, heç olmasa, aşağıdakı meyarlara uyğun olmalıdır:

***1. Sadə, konkret və rahat***

Vergi ödəyicilərinin öz öhdəliklərini başa düşmələri üçün vergi sadə olmalıdır və elə idarə edilməlidir ki, vergi ödəyicisi ödəyəcəyi məbləği və vaxtı əvvəlcədən bilsin.

***2. Dəyişikliyə uyğunlaşan***

Vergi sisteminin iqtisadiyyatı tənzimləyən bir vasitə olduğunu nəzərə alaraq verginin strukturu və dərəcəsi elə formalaşdırılmalıdır ki, onu baş verən hər hansı dəyişikliyə uyğunlaşdırmaq asan olsun.

***3. İnzibati cəhətdən səmərəli***

İnzibati xərclər vergi daxilolmaları ilə nisbətdə çox yüksək olmamalıdır. Verginin səmərəliliyi yalnız inzibati xərclərlə yekunlaşmır, buraya eyni zamanda vergi ödəyicisinin vergi qanunlarına əməl etməsi ilə bağlı xərclər də aiddir.

Təcrübə göstərir ki, əməletmə xərclərini müəyyənləşdirmək inzibati xərclərə nisbətən daha çətindir. Bunun əsas səbəbi onunla bağlıdır ki, inzibati xərclər dövlət gəlirindən ödənilir, əməletmə xərcləri isə reqressiv xüsusiyyətə malikdir; əməletmə xərclərinin artması vergi ödəyicilərinin daha çox qəzəbinə və müqavimətinə səbəb olur.

***4. Neytrallıq prinsipi***

Əgər hər hansı vergi iqtisadi fəaliyyətə mənfi təsir göstərirsə, onu neytral hesab etmək olmaz. Əslində, dövlət də belə hallardan qaçmağa çalışır, çünki bu zaman iqtisadiyyatı manipulyasiya etmək üçün fiskal siyasət yürütmək məcburiyyətində qalır. Buna görə də vergi sistemini qiymətləndirərkən neytrallığın dərəcəsini mütləq nəzərə almaq lazımdır.

*Vergi ödəyicilərinin öz öhdəliklərini başa düşmələri üçün vergi sadə olmalıdır və elə idarə edilməlidir ki, vergi ödəyicisi ödəyəcəyi məbləği və vaxtı əvvəlcədən bilsin*

***5. Ədalətlilik prinsipi***

Vergilər yalnız ədalətli olmamalı, eyni zamanda ədalətli görünməlidir. Çünki ədalətli qəbul edilməyən vergi vergidən yayınmağa meyil yaradır. Adətən deyirlər ki, əgər vergidən yayınma çox genişdirsə, burada günahkar vergi ödəyicisi yox, vergitutma sistemidir.

*Vergi sistemində ədalətliliyin iki növü vardır:*

- Üfüqi ədalətlilik - eyni situasiyada olan vergi ödəyiciləri eyni cür davranmanı tələb edir;
- Şaquli ədalətlilik - fərqli situasiyada olan vergi ödəyiciləri müəyyən dərəcədə fərqli davranmanı tələb edir. Bu prinsipə əsasən varlılardan kasıblara nisbətən daha çox vergi ödəmək tələb olunmalıdır ki, bu da vergitutmanın proqressiv sisteminə uyğun gəlir.

Üfüqi ədalətliliyə əməl etmək daha asandır, şaquli ədalətliliklə bağlı isə müxtəlif münasibətlər və fikir ayrılıqları mövcuddur. Əslində, ədalətlilik vergi yükünün bölüşdürülməsi ilə əlaqədardır. Vergi ödəyiciləri arasında vergi yükünün necə bölüşdürülməsi ilə bağlı isə müxtəlif yanaşmalar mövcuddur.

Bazar iqtisadiyyatında hər zaman kasıb təbəqə mövcuddur və onlara vergilərdən əldə olunan gəlir vasitəsilə yardım edilir. Burada artıq səmərə nəzəriyyəsi öz əhəmiyyətini itirir, çünki gəlirin yenidən bölüşdürülməsi nəticəsində onların əldə etdiyi bu müavinətlərdən vergi tutulmur.

# İKT-nin 2013-2020-ci illərə dair inkişaf hədəfləri

*Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının (İKT) inkişafı ilə bağlı ikinci Dövlət Proqramı layihəsi üzərində işlər yekunlaşıb. Yeni sənədin yaxın vaxtlarda təsdiq olunacağı nəzərdə tutulur.*



Rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov bildirib ki, 2013-2020-ci illəri əhatə edəcək proqramda informasiya-kommunikasiya texnologiyalarının inkişafı və informasiya cəmiyyətinə keçidin təmin olunması, «Elektron-hökumət» quruculuğunun tam başa çatdırılması, biliyə əsaslanan iqtisadiyyatın qurulması, dövlət və yerli özünüidarəetmə orqanlarında İKT-nin tətbiqinin genişləndirilməsi, elektron xidmətlərin inkişaf etdirilməsi başlıca prioritetlərdəndir. Həmçinin, cəmiyyətin informasiya məhsul və xidmətlərinə tələbatının dolğun ödənilməsi, rəqabətqabiliyyətli və ixracyönümlü İKT potensialının gücləndirilməsi yeni konsepsiya çərçivəsində qarşıda duran əsas vəzifələrdəndir.

Proqramda biliklərə əsaslanan iqtisadiyyatın qurulması və texnoloji layihələrin reallaşması üçün mərkəzləşdirilmiş institutun yaradılması da nəzərdə tutulur. Bu cür institusional qurum yeni innovativ layihələrin çevikliyini təmin etmək, investisiya mühitini yaxşılaşdırmaq, investorların maraqlarını təmin etmək, birgə layihələrdə iştirak üçün imkan yaratmaq məqsədi daşıyır. Bunun üçün İKT sahəsində istehsalı stimullaşdıran və inkişafı təmin edən İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun yaradılması planlaşdırılır. Fond İKT sahəsində yüksək biliklərə malik mütəxəssisləri cəlb etməyə, layihələrin səmərəliliyi və vacibliyi haqqında ənənəvi mütəxəssislərlə birgə araşdırmalar aparmağa, hər layihə üzrə əsaslandırılmış rəy tərtib etməyə və birgə layihələri idarə etmək üçün menecment bazası yaratmağa, intellektual biznesin inkişafına xidmət edəcək. Fond İKT sahəsində innovasiya mühitinin inkişaf etdirilməsi məqsədilə xarici sərmayəçilərin maliyyəsinin axınını da stimullaşdırmaq məqsədi daşıyır. Perspektivli innovasiya layihələrində xarici investorların kapitalından istifadə imkanının yaradılması üçün müxtəlif güzəştlərin tətbiqi də istisna deyil. Qarşıdakı əsas planlardan biri «E-hökumət»lə bağlı işlərin miqyasının daha da genişləndirilməsi, bu sistemə inteqrasiya olunan dövlət orqanlarının, onların göstərdikləri elektron xidmətlərin sayının artırılmasıdır. Elektron səhiyyə, elektron təhsil, elektron satınalma, elektron turizm, elektron notariat, elektron mədəniyyət, elektron arxiv, elektron məhkəmə, elektron ticarət, elektron ödəmə həllərinin tətbiqinin genişləndirilməsi, «ASAN xidmət» mərkəzlərində göstərilən xidmətlərin elektronlaşdırılması üzrə tədbirlərin görülməsi nəzərdə tutulur. Vətəndaşlara onlayn rejimdə bir çox xidmətlərin göstərilməsi həyata keçiriləcək. Ümumilikdə, «E-hökumət»in dinamikliyinin artırılması ilə bağlı sistemli işlərin görülməsi də əsas tədbirlər sırasındadır. Proqramda kosmik sənayenin inkişafı ilə bağlı müvafiq tədbirlərə də geniş yer ayrılıb. Belə ki, xarici investorların bu sahəyə cəlb olunmasını genişləndirmək, Azərbaycanın süni peykə sahib ölkələr sırasında mövqeyini gücləndirmək, telekommunikasiya şəbəkəsində yeni texnologiyaların tətbiqini artırmaq və peykdən bir çox İKT vasitələri üçün əlverişli istifadəni təmin etmək, yeni kosmik peykin fəzaya buraxılışı ilə bağlı tədbirləri başa çatdırmaq bu istiqamətdə əsas hədəflər hesab olunur.

Proqramda ən mühüm layihələrdən biri kimi yüksək texnologiyalar parkları şəbəkəsinin genişləndirilməsi və ölkənin iri şəhərlərində bu tipli parkların yaradılması yer tutur. Bu layihələrin reallaşması ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının artırılması üçün münbit şərait yaratmaq, bu sahədə sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədi daşıyır. Həmin ərazilərdə informasiya və kommunikasiya texnologiyaları, telekommunikasiya və kosmos, enerji səmərəliliyi sahələrində tədqiqatların aparılması planlaşdırılır. Yeni Dövlət Proqramında Azərbaycanın regional gücünün artmasını təmin edəcək trans-kontinental layihələrin həyata keçirilməsi də əsas məqsədlərdəndir. Onların sırasında ən real və perspektivli sayılan «Trans-Avrasiya Super İnformasiya Magistralı» layihəsinin yaxın illərdə başa çatdırılması nəzərdə tutulur. Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi bu layihənin gerçəkləşməsi sayəsində region ölkələri arasında rəqəmsal fərqin aradan qaldırılacağını, güclü və dayanıqlı informasiya infrastrukturunun yaradılacağını, ucuz, keyfiyyətli genişzolaqlı internetə çıxışın təmin ediləcəyini, e-ticarət, e-bazar sisteminin inkişaf etdiriləcəyini və ölkəmizin qlobal informasiya məkanına inteqrasiyasının sürətləndiriləcəyini proqnozlaşdırır.

**E.CƏFƏRLİ**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Dünya qaz ehtiyatlarının **7%**-i Xəzər regionunda cəmləşib ki, bu da **14 trln.** kubmetr qaz deməkdir.
- Azərbaycanda ilkin neft ehtiyatları **29,9 mlrd.** bareldir, indiyə qədər isə **11,7 mlrd.** barel neft çıxarılıb.
- Bu ilin yanvar-iyul aylarında qeyri-neft bölməsinin inkişafına sərf edilmiş vəsaitin həcmi əvvəlki ilin müvafiq dövrünə nisbətən **19,6%** artaraq **6 154,7 mln. manat** (ümumi sərmayənin 69,9%-i) təşkil edib.
- Qeyri-neft bölməsinə yönəldilmiş vəsaitin **80%**-i dövlət, **20%**-i qeyri-dövlət mülkiyyətli müəssisə və təşkilatların payına düşüb.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Sənədlərin təqdim olunması müddəti

**Operativ vergi nəzarəti zamanı tələb olunan sənədlər hansı müddətə qədər yoxlayıcıya təqdim edilməlidir?**

Vergi Məcəlləsinin 16.1.6-cı maddəsinə əsasən Vergi Məcəlləsi ilə müəyyən edilmiş hallarda və qaydada vergi orqanlarına və onların vəzifəli şəxslərinə zəruri olan məlumatları və sənədləri, habelə mühasibat uçotu elektron formatda aparıldığı halda, özünün və filiallarının elektron daşıyıcılarında olan məlumatlara birbaşa və ya məsafədən çıxış imkanı yaratmaqla, həmin məlumatları vergi orqanının tələbi ilə təqdim etmək vergi ödəyicisinin vəzifəsidir. Həmçinin Vergi Məcəlləsinin 23.1.2-ci maddəsinə müvafiq olaraq vergi ödəyicilərində bütün maliyyə sənədlərini, mühasibat kitablarını, hesabatları, smetaları, nağd vəsaitləri, qiymətli kağızları və başqa qiymətliləri, bəyannamələri və vergilərin hesablanması və ödənilməsi ilə bağlı olan digər sənədləri qanunvericiliklə müəyyən edilmiş qaydada yoxlamaq, habelə yoxlamaların keçirilməsi zamanı yoxlamaya aid olan məsələlərlə bağlı vergi ödəyicilərindən və ya onun vəzifəli şəxslərindən lazımi izahatlar, arayışlar və məlumat almaq, habelə mühasibat uçotu elektron formatda aparıldığı halda elektron auditin məqsədləri üçün vergi ödəyicisinin və onun filiallarının elektron daşıyıcılarındakı məlumatlarının verilməsini, həmin məlumatlara birbaşa və ya məsafədən çıxış imkanının yaradılmasını tələb etmək vergi orqanlarının hüququdur.

Vergi Məcəlləsinin 42.1-ci maddəsinə müvafiq olaraq sənədlərin və ya elektron faylların verilməsi barəsində tələb yönəldilən şəxs həmin sənədləri və ya elektron faylları 15 iş günü müddətində vergi orqanına təqdim etməlidir. Sənədlərin lazımi qaydada təsdiq edilmiş surətləri təqdim edilir.

Vergi Məcəlləsinin 42.3-cü maddəsinə əsasən səyyar vergi yoxlaması üçün zəruri olan vergi orqanı tərəfindən tələb edilən sənədlərin və ya elektron faylların vergi ödəyicisi tərəfindən vergi orqanına verilməsindən imtina edilməsi və ya Vergi Məcəlləsinin 42.1-ci maddəsində göstərilən müddətdə təqdim edilməməsi qanunla müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur. Belə ki, Vergi Məcəlləsinin 57.3-cü maddəsində qeyd edilmişdir ki, Vergi Məcəlləsinin 23.1.2-ci maddəsində göstərilən sənədlərin (o cümlədən elektron formatda məlumatların) müəyyən edilmiş müddətlərdə təqdim edilməməsinə və ya bilərəkdən təhrif olunmaqla təqdim edilməsinə görə vergi ödəyicisinə 100 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Eyni zamanda, Vergi Məcəlləsinin 42.3-cü maddəsində qeyd edilmişdir ki, həmin maddədə göstərilən qaydada sənədlərin və ya elektron faylların təqdim edilməsindən imtina edildikdə, səyyar vergi yoxlamasını həyata keçirən vergi orqanının vəzifəli şəxsi Vergi Məcəlləsinin 43-cü maddəsində nəzərdə tutulmuş qaydada sənədlərin götürülməsini həyata keçirə bilər.

Göründüyü kimi, sənədlər Vergi Məcəlləsinin 42.1-ci maddəsinə müvafiq olaraq vergi orqanı tərəfindən tələb edildikdə vergi ödəyicisi tərəfindən 15 iş günü müddətində vergi orqanına təqdim edilməlidir.

Əgər vergi ödəyicisi sənədləri operativ vergi nəzarəti aparılan zaman təqdim edə bilmirsə, bu zaman tərtib edilmiş aktda bununla bağlı müvafiq qeydlər edərək aktı imzalamaqdan imtina edə bilər. Müvafiq sənədlər vergi ödəyicisi tərəfindən akt tərtib edildikdən sonra təqdim edilərsə, Vergi Məcəlləsinin 39.5-ci maddəsinə müvafiq olaraq vergi ödəyicisinin akta olan etirazı kimi qəbul ediləcəkdir.

Vergi Məcəlləsinin 39.6-cı maddəsində qeyd edilmişdir ki, Vergi Məcəlləsinin 39.5-ci maddəsində müəyyən edilən müddət bitdikdən sonra 15 gündən çox olmayan müddətdə vergi orqanının rəhbəri (onun müavini) vergi ödəyicisindən Vergi Məcəlləsi ilə müəyyən edilmiş qaydada götürülmüş, habelə vergi ödəyicisi tərəfindən təqdim edilmiş sənədlərə və vergi yoxlaması aktına, vergi qanunvericiliyinin pozulması hallarına və onların aradan qaldırılması və müvafiq sanksiyaların (cərimələrin) tətbiq edilməsi məsələsinə baxır.

# Əmək pensiyalarının baza hissəsi artırıldı

*Ölkə başçısı tərəfindən aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi, maaş və pensiyaların məbləğinin artırılması istiqamətində mühüm addımlar atılıb və bu gün də işlər davam etdirilməkdədir.*

Dövlət başçısının müvafiq sərəncamları ilə artırılan əmək haqlarından sonra, əmək pensiyaçılarının da pensiya məbləğləri artırılıb. Belə ki, ölkə başçısının əmək pensiyasının baza hissəsinin məbləğinin artırılmasına dair imzaladığı sərəncamla artıq sentyabrın 1-dən etibarən yaşa görə əmək pensiyalarının baza hissəsinin məbləği 100 manat olacaq. Həmçinin, sərəncamla Dövlət Sosial Müdafiə Fondu Azərbaycanın Milli Qəhrəmanlarının və şəhid ailələrinin, əlillərin və digər şəxslərin əmək pensiyalarının baza hissəsinə əlavələr də daxil olmaqla, bütün növ əmək pensiyaları üzrə aylıq pensiya məbləğlərinin artırılaraq yenidən hesablanmasını təmin edəcək.

Verilən sərəncamla əlaqədar Dövlət Sosial Müdafiə Fondunda mətbuat konfransı keçirilib. DSMF sədri Səlim Müslümov vurğulayıb ki, iqtisadi proseslərin hazırkı kontekstində əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiəsinin gücləndirilməsi tədbirlərinin uğurla icra edilməsi, maaş və pensiyaların artırılması ölkə hökumətinin ən prioritet məsələlərindən biridir. Pensiyaçıların sosial müdafiəsinin ölkə rəhbərliyi tərəfindən daim diqqət mərkəzində saxlanılması hər il pensiya məbləğlərinin əhəmiyyətli artımını şərtləndirib.

DSMF sədrinin sözlərinə görə, son 10 il ərzində ciddi sosial-iqtisadi islahatların aparılmasının məntiqi nəticəsi kimi əmək pensiyalarının orta aylıq məbləği 9,2 dəfə artaraq 18,4 manatdan 170 manata, minimum məbləği 7,1 dəfə artaraq 14 manatdan 100 manata, yaşa görə pensiyalar üzrə əvəzetmə əmsalı 29,3 faizdən 45 faizə çatdırılmışdır.

İyulun 1-i tarixinə olan vəziyyətə görə, ölkədə 1 milyon 272 min 566 pensiyaçı var. DSMF sədri bu statistikanı diqqətə çatdıraraq bildirib ki, əmək pensiyalarının baza hissəsinin 17,6 faiz artırılmasına dair ölkə başçısının sərəncamı təxminən 1 milyon 209 min 135 pensiyaçıya şamil olunacaq.

Onun sözlərinə görə, bu artımdan yararlanmayan qulluq stajına görə əmək pensiyasına əlavələr alanlar, yəni dövlət qulluqçuları, hərbi qulluqçular və digər bu kateqoriyaya aid 63.431 pensiyaçıların pensiyaları isə «Əmək pensiyaları haqqında» Qanuna uyğun olaraq fərqli qaydada artırılır. Pensiyanın baza hissəsini 100 faiz alanların (1 milyon 90 min nəfər) pensiyasının artımı 15 manat, bəzi kateqoriyaya aid olan pensiyaçılarda isə daha çox olacaq. Pensiyanın baza hissəsini 120 faiz həcmində alanlar üzrə 15 min 580 nəfər (I qrup gözdən əlillər istisna olmaqla) 19 manat 50 qəpik, pensiyanın baza hissəsini 200 faiz həcmində alan 7763 nəfər üzrə isə (I qrup gözdən əlillər) 31 manat 50 qəpik təşkil edəcəkdir.

Bundan əlavə, Milli Qəhrəmanların ailə üzvlərinin pensiyasının baza hissəsi 30 manat artırılaraq 200 manata, şəhid ailəsi üzvlərinin pensiyasının baza hissəsi isə 27 manat 75 qəpik artırılaraq 185 manata çatacaqdır. Döyüşən ordunun tərkibində xidmət etmiş müharibə iştirakçılarının (Böyük Vətən müharibəsi iştirakçıları istisna olmaqla), hərbi



belə döyüş əməliyyatı aparılan ölkədə hərbi xidmət borcunu yerinə yetirmiş hərbi quluqçuların pensiyasının baza hissəsi 16 manat 50 qəpik artacaqdır. Böyük Vətən müharibəsi iştirakçılarının pensiyasının baza hissəsi 28 manat 50 qəpik, həmin kateqoriyadan olan I qrup əlillərinki 37 manat 50 qəpik, II qrup əlillərinki 31 manat 50 qəpik, III qrup əlillərinki isə 28 manat 50 qəpik artırılacaqdır.

DSMF sədri əmək pensiyalarının baza hissəsinin artımının maliyyələşdirilməsi üçün hər hansı problemin olmadığını və bu məqsədlə ilin sonuna kimi təxminən 73,2 milyon manat əlavə vəsaitin tələb olunduğunu bildirib. Həmçinin qeyd edib ki, hazırda Azərbaycanda əmək pensiyalarının baza hissəsi 128 ABŞ dolları təşkil edir. Bu göstəriciyə görə Azərbaycan MDB-də üçüncü yeri tutur. Qazaxıstanda əmək pensiyasının baza hissəsi 185 dollar, Belarusda 129 dollar, Rusiyada 109,3 dollar, Ukraynada 111,8 dollar, Ermənistanda 31,7 dollar və s. təşkil edir.

Bildirək ki, ölkədə əmək pensiyaları yaşa, əlilliyə və ailə başçısının itirilməsinə görə verilir. Yaşa və əlilliyə görə əmək pensiyası baza, sığorta və yığım hissəsindən, ailə başçısını itirməyə görə əmək pensiyası isə baza və sığorta hissəsindən ibarətdir. Yaşa görə əmək pensiyası buna hüququ olan şəxsin müraciəti əsasında əmək pensiyası hüququnun yarandığı gündən ömürlük təyin edilir. Əlilliyə görə əmək pensiyası buna hüququ olan şəxsin müraciəti əsasında əlilliyin və ya 18 yaşınadək sağlamlıq imkanları məhdudluğunun müəyyən olunduğu gündən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi bütün əlillik və ya sağlamlıq imkanlarının məhdudluğu dövrü üçün, ailə başçısını itirməyə görə əmək pensiyası isə buna hüququ olan şəxsin müraciəti əsasında ailə başçısını itirməyə görə əmək pensiyası hüququnun yarandığı gündən «Əmək pensiyaları haqqında» Qanunda göstərilmiş şərtlərin mövcud olduğu müddət üçün təyin edilir.

**AYTƏN**

*Azərbaycan Mətbuat Şurası və «Vergilər» qəzetinin təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş «Heydər Əliyev və Azərbaycanda vergi siyasəti» mövzusunda fərdi jurnalist yazıları müsabiqəsi müasir vergi sistemi ilə bağlı yeniliklərin, habelə qarşıda duran əsas hədəflərin cəmiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət daşımışdır. «Heydər Əliyevin iqtisadi inkişaf strategiyasında vergi siyasəti», «Nağdsız ödəniş sisteminin inkişaf perspektivləri», «Əmək müqaviləsi: gələcəyə təminat» istiqamətləri üzrə keçirilmiş müsabiqəyə ümumilikdə 44 yazı təqdim edilmiş, onlardan 9-u əsas mükafata layiq görülmüşdür.*

*Müsabiqədə mükafata layiq yer tutmuş növbəti məqaləni təqdim edirik.*

# Heydər Əliyevin iqtisadi inkişaf strategiyasında vergi siyasəti

Ulu öndər Heydər Əliyevi çox haqlı olaraq müstəqil Azərbaycanın memarı və qurucusu adlandırırlar. İkinci dəfə qazanılan müstəqilliyin dönməz, sarsılmaz və əbədi olmasını təmin edən Heydər Əliyev bu məqsədə çatmaq üçün böyük sınaqlardan keçməli oldu.1994-cü il iyunun 21-də Prezident Sarayında respublika iqtisadiyyatının və ölkə həyatının digər sahələrinin cari məsələlərinə həsr olunmuş müşavirədəki yekun nitqində ulu öndər demişdir: «Biz respublikamızda hüquqi-demokratik dövlət qurmaq yolu ilə gedirik. Bu, dövlət quruculuğunda, siyasi sahədə strateji yolumuzdur. Bununla sıx əlaqədə olan ikinci sahə iqtisadiyyatın demokratik yollarla idarə edilməsidir, yəni iqtisadiyyatda demokratik islahatlar aparılması, bazar iqtisadiyyatı yoludur. Bütün bunlar kompleks şəkildə respublikamızı gələcəyə aparan yollar, istiqamətlərdir».

Ölkəmiz üçün ən ağır və ən məsuliyyətli bir dövrdə - 1994-cü il sentyabrın 20-də «Əsrin müqaviləsi»nin imzalanması ən böyük risk idi. Müstəqilliyimizin xilası və əbədiliyi üçün belə riskə gedən Heydər Əliyev bir daha müdrik və dahi şəxsiyyət, uzaqgörən dövlət başçısı olduğunu əməli şəkildə sübut etdi. Azərbaycanın sərbəst bazar münasibətlərinə əsaslanan liberal iqtisadiyyat xəttini dəstəklədiyini dünyaya bəyan edən ulu öndərin böyüklüyü ondadır ki, həqiqi müstəqilliyin, siyasi azadlığın iqtisadi qüdrət və inkişafdan keçdiyini bilir və ölkənin məhz bu yolla irəliləməsini təqdir edirdi.

Heydər Əliyevin iqtisadi platformasında iqtisadi islahatlar dedikdə, Azərbaycan iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə aparmaq, özəl bölmənin fəaliyyətini genişləndirmək və özəlləşdirməni həyata keçirmək, sahibkarlığa, təşəbbüskarlığa geniş imkanlar yaratmaq, ölkə iqtisadiyyatını dünyanın inkişaf etmiş dövlətlərinin iqtisadi sistemi əsasında qurmaq və dünya iqtisadiyyatına inteqrasiya etmək nəzərdə tutulurdu. Bu məqsədə çatmaq üçün düzgün vergi siyasətinin aparılması müstəsna əhəmiyyət kəsb edir. Azərbaycan xalqının ümummilli lideri iqtisadi siyasətin mühüm tərkib hissəsi olan vergi siyasətini həmişə diqqət mərkəzində saxlamış, vergi sisteminin kompleks inkişafı üçün uğurlu tədbirlər həyata keçirmişdir. Dahi öndər ölkədə vergi sisteminin qlobal inkişafını bir-biri ilə sıx əlaqədə olan üç əsas istiqamətdə - vergi qanunvericiliyinin vahid normativ-hüquqi bazasının işlənib hazırlanmasında, vergi inzibatçılığının təkmilləşdirilməsində və vergi orqanlarında xidmət edən əməkdaşların bilik və bacarığının artırılmasında görürdü.

**Aparılan struktur islahatları nəticəsində vergi xidmətində çalışanların sayının azaldılması ilə yanaşı, vergi xidmətinin səmərəliliyinin artırılmasına və keyfiyyətinin yüksəldilməsinə nail olundu**

Dövlət müstəqilliyinin ilk illərində qəbul olunmuş və vergitutmanın müxtəlif sahələrini tənzimləyən ayrı-ayrı normativ sənədlərin pərakəndə şəkildə olması həm dövlət vergi orqanları, həm də vergi ödəyiciləri üçün müəyyən çətinliklər və anlaşılmazlıqlar yaradırdı. Eyni zamanda, beynəlxalq iqtisadi inteqrasiyada daha fəal iştirakını yaxından təmin etmək üçün beynəlxalq standartlara cavab verən vergi qanunvericiliyinin yaradılması olduqca zəruri idi. Bununla əlaqədar respublikamızda vergitutmanı tənzimləyən vahid normativ sənədin - Azərbaycan Respublikasının Vergi Məcəlləsinin qəbul edilməsi tarixi zərurət kimi meydana çıxmışdı. Beynəlxalq maliyyə qurumlarının, yerli və xarici iş adamlarının və mütəxəssislərin fikir və tövsiyələri nəzərə alınmaqla Vergi Məcəlləsi layihəsinin hazırlanması prosesində onun ayrı-ayrı hissələri Heydər Əliyevin yanında keçirilən müşavirələrdə dəfələrlə müzakirə edilmiş, vergitutmanın sadələşdirilməsi, onun bazasının genişləndirilməsi, vergi yükünün azaldılması və s. barədə onun dəyərli tövsiyələri bu işin uğurla başa çatdırılmasına şərait yaratmışdır. Sənəd Milli Məclisdə geniş müzakirə olunaraq 2000-ci ilin iyul ayında qəbul edildi və 2001-ci il yanvar ayının 1-dən qüvvəyə mindi.

Bu islahatların davamı olaraq 2000-ci il fevralın 11-də ölkədə aparılan vahid maliyyə və büdcə siyasəti çərçivəsində vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən və bu sahədə dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı - Vergilər Nazirliyi yaradıldı. Yeni struktur sistemlilik, operativlik, koordinasiya və güclü təşkilati-idarəetmə mexanizmi kimi müsbət keyfiyyətləri özündə birləşdirdi. Vergidən yayınma ilə mübarizənin səmərəliliyinin yüksəldilməsi və bu sahədə Vergilər Nazirliyinin səlahiyyətlərinin artırılması məqsədilə Cinayət-Prosessual Məcəlləsinə əsasən, vergi xidmətinə «hüquq-mühafizə orqanı» statusu verildi.

Ulu öndərin sahibkarlarla keçirdiyi görüşlərdən sonra verdiyi fərmanların vergi inzibatçılığının təkmilləşdirilməsində, normativ-hüquqi bazanın möhkəmləndirilməsində, struktur islahatlarının həyata keçirilməsində müstəsna rolu olmuşdur. Belə ki, «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında», «Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında» və «Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında» sənədlərdə vergi orqanlarının qarşısında bir sıra mühüm vəzifələr qoyuldu. Qeyd edilən fərmanlardan irəli gələn məsələlərin həlli ilə bağlı Vergilər Nazirliyinin strukturunda əsaslı dəyişikliklər edildi. Aparılan struktur islahatları nəticəsində vergi xidmətində çalışanların sayının azaldılması ilə yanaşı, vergi xidmətinin səmərəliliyinin artırılmasına və keyfiyyətinin yüksəldilməsinə nail olundu.

Onu da qeyd etmək lazımdır ki, vergi orqanlarında aparılan struktur və kadr islahatlarında vergi xidməti əməkdaşlarının maddi rifahının yüksəldilməsinə də xüsusi diqqət göstərilib. Ulu öndər vergi orqanlarında xidməti dövlət qulluğunun xüsusi növü hesab edərək «Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» fərman imzalamaqla bu sahəni xüsusi statuslu xidmət səviyyəsinə qaldırdı.

Ümummilli liderin müəyyənləşdirdiyi iqtisadi siyasətin Prezident İlham Əliyev tərəfindən ardıcıl və inamla davam etdirilməsi vergi sistemində islahatların yeni mərhələyə daxil olmasına, büdcə daxilolmalarında vergilərin rolunun əhəmiyyətli dərəcədə artmasına səbəb olub. Xüsusilə də son illərdə qeyri-neft sektoru üzrə vergi daxilolmaları hissolunacaq dərəcədə artmaqdadır.

Vergilər Nazirliyi sistemində islahatlar son illər dönməz xarakter alıb və uğurla davam etdirilir. Vergi siyasətinin yerlərdə geniş təbliği sahəsində bölgələrdə fəaliyyət göstərən mətbuat orqanlarının da üzərinə mühüm vəzifələr düşür. Son dövrdə respublikamızın bütün şəhər və rayonlarında ərazi vergilər idarələrinin vergi ödəyicilərinə xidmət mərkəzləri üçün binalar tikilib istifadəyə verilib. Belə mərkəzlərdən biri də Astara şəhərində fəaliyyət göstərir. 6 saylı Ərazi Vergilər İdarəsinin vergi ödəyicilərinə xidmət mərkəzi yerli sahibkarların, iş adamlarının və digər aidiyyəti qurumların tez-tez müraciət etdikləri yerdir.

«Astara» qəzetində vaxtaşırı olaraq 6 saylı Ərazi Vergilər İdarəsinin mütəxəssislərinin vergi siyasəti və Vergi Məcəlləsində edilən dəyişikliklərlə bağlı materiallar dərc olunur. Qəzetin 15 mart 2013-cü il tarixli sayında «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 21 dekabr 2012-ci il tarixli Qanunu ilə əlaqədar 6 saylı Ərazi Vergilər İdarəsinin məlumatları dərc olunmuşdur.

Ümummilli lider Heydər Əliyevin vergi siyasətinin kompleks inkişafı üçün müəyyənləşdirdiyi tədbirlər bu gün daha geniş miqyasda həyata keçirilir və bu sahədə uğurlu nəticələr əldə olunur.

**Azər ABDULLAYEV,**
***«Astara» qəzetinin baş redaktoru***

# «BBB+» reytinqi Azərbaycanın Avropa bazarlarına çıxışına güclü zəmin yaradır

*Azərbaycan hökuməti Avropanın maliyyə bazarlarında öz qiymətli kağızlarını və səhmlərini yerləşdirmək üçün layihələr üzərində işləyir. Maliyyə Nazirliyi (MN) müvafiq strukturlarla birgə istiqraz və avrobondların buraxılması üçün beynəlxalq maliyyə strukturları ilə məsləhətləşmələri davam etdirir, eyni zamanda beynəlxalq bazarlardakı vəziyyət təhlil olunur.*



Maliyyə Nazirliyindən verilən xəbərə görə, son aylarda beynəlxalq maliyyə bazarlarında qiymətli kağızların likvidliyinin artması, səhmlər üzrə gəlirliliyin yüksəlməsi, istiqrazlara inamın bərpa olunması və digər amillər bu istiqamətdə əlverişli şəratin yaranmasına səbəb olub. Bu kimi tendensiyalar Azərbaycanın avrobond buraxmaq imkanlarını da gücləndirir.

Avrobond dünya maliyyə bazarlarında əsas qiymətli kağızlardan hesab olunur və gəlirliliyi digər maliyyə alətlərinə nisbətən daha yüksəkdir. Eləcə də bu kağızların maliyyə-fiskal baxımdan mühüm əhəmiyyəti var. Bu sahəyə daha çox pul qoymaqla Avropada iri investor kimi tanınmaq mümkündür. Uzunömürlü kağızlar kimi avrobondlar istənilən vaxt müəyyən divident gətirməklə satıla da bilər. Hazırda 25-dən çox ölkə bu kağızı emissiya etməyə üstünlük verir. MDB zonasında həmin kağızın buraxılışı ilə daha çox Rusiya məşğul olur, Qazaxıstan isə bu səhm variantlarını nəzərdən keçirir. Bu istiqrazların son illər cəlbediciliyi bir çox dövlətlərin iri şirkətlərini onun yeni buraxılışına sövq edir.

Bir sıra ölkələr avrobondların buraxılışından əldə olunan vəsaitləri dövlət büdcəsinin kəsirinin örtülməsinə, investisiya layihələrinin maliyyələşdirilməsinə, ipoteka sektoruna, digər xərclərə yönəldir. Həmçinin, bu qiymətli kağızlar ölkənin bank, sığorta, istiqraz bazarının ehtiyaclarının ödənilməsi üçün də sərf olunur. Bu baxımdan, avrobondların əlavə maliyyə mənbəyi kimi əhəmiyyəti böyükdür.

Avrobondları buraxan ölkələrin maliyyə sabitliyi, investisiya və kredit reytinqinin göstəriciləri də mühüm əhəmiyyət kəsb edir. İnkişaf etməkdə olan dövlətlər öz maliyyə ehtiyatlarının bir qismini müxtəlif maliyyə alətləri formasında, xüsusilə də qiymətli kağız və istiqraz şəklində Avropanın kapital bazarlarına yönəltməyə çalışırlar. Dünya iqtisadiyyatında qiymətli kağızlar və istiqrazlar bank depozitlərindən və digər maliyyə alətlərindən daha gəlirli hesab olunduğundan, iri investorlar bu sahəyə daha çox sərmayə yatırırlar.

Hər hansı ölkənin investisiya reytinqi daha yüksək olanda Avropa maliyyə bazarlarında həmin ölkənin investorlarına inam və etibar da böyük olur. Beynəlxalq maliyyə və reytinq təşkilatlarının neqativ reytinq ilə qiymətləndirilən ölkələrin bu maliyyə alətini emissiya etməsi real görünmür. Hazırda Azərbaycanın «BBB+» investisiya reytinqinə malik olması iri şirkətlərin və bankların Avropanın səhm bazarında aktiv iştirakı üçün əlverişli zəmin yaradır. Respublikamızın yüksək pozitiv reytinq əmsalı əldə etməsi investisiya qabiliyyətinin yüksək göstəricisi kimi səciyyələndirilir və mövcud reytinq ilə beynəlxalq maliyyə bazarlarında aktiv iştirakçıya çevrilə bilmək üçün əla fürsət hesab oluna bilər.

Maliyyə Nazirliyi bu maliyyə alətlərinin likvidlik yaratmaq üçün emissiyasının həcmini 500 milyon - 1 milyard avro arasında proqnozlaşdırır. Nazirlik respublikamızın bir çox iqtisadi qurumları tərəfindən buraxılan müxtəlif növ qiymətli kağızların uğurlu emissiyasının, Avropanın qiymətli kağızlar bazarına daxil olma potensialının güclü olduğunu düşünür. Mərkəzi Bank tərəfindən emissiya olunan notlar, Beynəlxalq Bankın və Kapitalbankın buraxdığı istiqrazlar, İpoteka Fondunun istiqrazları, eyni zamanda digər bankların və maliyyə qurumlarının emissiya etdiyi avrobondlar (avroistiqrazlar), səhmlər dünya maliyyə sistemində Azərbaycanın iştirakını təmin etməyə geniş imkanlar yaradır.

**ELBRUS**

# «ASAN xidmət» mərkəzlərinin asan xidmətləri...

*Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində yaradılan «ASAN xidmət» mərkəzlərində dövlət orqanları tərəfindən göstərilən xidmətlər vahid və əlaqələndirilmiş formada həyata keçirilir. Bu xidmət mərkəzlərinin yaradılması vətəndaşların əlavə xərclərinin və vaxt itkisinin azalmasına, dövlət strukturlarına etimadın daha da gücləndirilməsinə, şəffaflığın artırılmasına səbəb olub.*

Hazırda 1 saylı Bakı «ASAN xidmət» mərkəzi Bakı şəhərinin Nəsimi, Nərimanov və Binəqədi rayonlarının, Sumqayıt «ASAN xidmət» mərkəzi Sumqayıt şəhərinin və Abşeron, Xızı, Siyəzən, Şabran rayonlarının, 2 saylı Bakı «ASAN xidmət» mərkəzi Bakı şəhərinin Xətai, Nizami və Suraxanı rayonlarının sakinlərinə xidmət göstərir.

«ASAN xidmət» mərkəzlərində notariat fəaliyyəti, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, məhkumluq barədə arayışların verilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi, ümumvətəndaşlıq pasportlarının verilməsi və dəyişdirilməsi, hüquqi və fiziki şəxslərə arxiv arayışlarının verilməsi, torpaq kadastrı məlumatları barədə arayışların verilməsi, əmək pensiyalarının təyin edilməsi, daşınmaz əmlakla bağlı əməliyyatların qeydiyyatı, kommersiya hüquqi şəxslərin və vergi ödəyicilərinin qeydiyyatı, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikası ərazisində müvəqqəti və daimi yaşamaq üçün icazələrin, habelə haqqı ödənilən əmək fəaliyyətini həyata keçirməsi üçün fərdi icazələrin verilməsi, sənədin hazır olması haqqında məlumat, funksional yardımçı xidmətlər, dövlət orqanlarının göstərdikləri bütün xidmətlər üzrə informasiya xidmətinin həyata keçirilməsi, gömrük bəyannamələrinin, gömrük rəsmiləşdirilmələri üçün sənədlərin qəbulu kimi xidmətlər həyata keçirilir.

«ASAN xidmət» mərkəzlərində vətəndaş məmnunluğu əsas şərtlərdən biridir və bu baxımdan vətəndaşlara göstərilən xidmətlərdən istifadə daha da asanlaşdırılıb. Belə ki, «Elektron hökumət» portalında (e-gov.az) və www.asan.az saytında «ASAN xidmət» mərkəzlərində onlayn növbə tutmaq imkanı yaradılıb. Bu xidmətdən istifadə etməklə vətəndaşlar əlavə vaxt itkisinə yol vermədən «ASAN xidmət» mərkəzlərində göstərilən xidmətlərdən istifadə məqsədilə onlayn növbə tuta biləcəklər. Onlayn növbə tutmaq üçün hər bir şəxs portalda tələb olunan məlumatları - şəxsi məlumatlar, xidmətin seçilməsi, «ASAN xidmət» mərkəzinin seçilməsi, növbə tarixinin və vaxtının seçilməsini dolduraraq xidmətdən rahat yararlana bilərlər. Bundan əlavə, vətəndaşlar xidmətin təqdim etdiyi «onlayn əlaqə»dən istifadə etməklə də suallarına qısa zaman kəsiyində cavab tapacaqlar. Bu xidmətdən istifadə etmək üçün www.asan.az saytında «onlayn əlaqə» bölümü seçilir və «dialoqa başla» düyməsi sıxılır. Daha sonra açılan pəncərədə ad, soyad, elektron poçt ünvanı və sahə seçilərək «təsdiq et» düyməsi ilə təsdiq edilir. Bundan sonra isə açılan pəncərədə operator ilə əlaqə yaradılır. Operatora ünvanlanan sualların cavabı isə həmin anda cavablandırılır.

«ASAN xidmət» mərkəzlərində eyni zamanda özünəxidmət imkanı da yaradılır. Belə ki, mərkəzlərdə daim internetə açıq olan kompüterlər vasitəsilə kompüteri olmayan vətəndaşlar bütün növ elektron xidmətlərdən yararlana bilərlər.

«ASAN xidmət» mərkəzlərinin təsis edilmədiyi regionlardakı əhaliyə xidmətlərin çatdırılması və mərkəzlərə gəlmədən vətəndaşların xidmətlərdən yararlanmalarının təmin edilməsi üçün zəruri müasir texnoloji avadanlıqlarla təchiz edilmiş irihəcmli xüsusi avtobuslar artıq səyyar formada regionlarda əhaliyə xidmətlər göstərirlər. «Səyyar xidmət»in həyata keçirilməsinin əsas məqsədləri dövlət xidmətlərinin vətəndaşlara daha rahat, yeni və innovativ üsullarla təqdim olunması, vətəndaşlar üçün əlçatanlığın təmin edilməsi və vətəndaş məmnunluğuna nail olunmasıdır. «Səyyar xidmət» əsasən iritutumlu avtobuslar vasitəsilə həyata keçirilir. Dövlət Agentliyindən əldə etdiyimiz məlumata görə, «Səyyar xidmət» avtobusları son üç ay ərzində 20-yə yaxın şəhərdə 35 min nəfərə xidmət göstərib.




**AYTƏN**

# Əlverişli biznes mühiti yeni iş yerlərinin açılmasını stimullaşdırır

## *Vergi dərəcələrinin optimallaşdırılması tədbirləri məşğulluq strategiyasının uğurla reallaşdırılmasına imkan yaradır*

***Bazar iqtisadiyyatı şəraitində hər bir ölkədə əmək bazarının canlanması, əhalinin tarixi məşğulluq ənənələrinin bərpası, habelə işsizliyin səviyyəsinin azaldılması, ilk növbədə, biznes mühiti üçün əlverişli şəraitin yaradılmasından, habelə sahibkarlığın inkişafından keçir. Son illər Azərbaycanda sahibkarlığın inkişafına dövlət maliyyə dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi, vergi dərəcələrinin aşağı salınması və stimullaşdırıcı güzəştlərin tətbiqi bu sahədə səmərəli nəticələrin əldə edilməsinə imkan yaradır.***

Beynəlxalq Əmək Təşkilatının hələ 1995-ci ildə apardığı tədqiqatlara əsasən, Azərbaycanda işsizlik səviyyəsi 17,2%, 1999-cu ildə əhalinin siyahıya alınması zamanı əldə olunan məlumatlara görə isə 16,25% təşkil edib. 2003-cü ildə BMT-nin İnkişaf Proqramı və Beynəlxalq Əmək Təşkilatının iştirakı ilə respublikanın bütün ərazisində əhalinin iqtisadi fəallıq səviyyəsi üzrə keçirilmiş seçmə statistik müayinəyə əsasən işsizlik 9,7% təşkil edirdisə, hazırda bu rəqəm 5% civarındadır. Bu göstəriciyə görə Azərbaycan MDB dövlətləri sırasında öncül yerlərdən birini tutur.

Əgər ölkə vətəndaşları bir zamanlar iş axtarmaq üçün Rusiya və digər MDB ölkələrinə üz tuturdularsa, son illərdə əks proses başlayıb. Nəinki MDB-dən, ümumilikdə dünyanın bir çox ölkələrindən işaxtaranlar iqtisadi baxımdan cəlbedici ölkə kimi respublikamıza üz tuturlar. Vaxtilə iş tapmaq ümidi ilə başqa ölkələrə gedən vətəndaşlarımızın son illərdə geri qayıtması, habelə əcnəbi miqrantların leqal, bəzən də qeyri-leqal şəkildə respublikanın əmək bazarına can atmaları sahibkarlıq subyektlərinin və yüksək gəlirli iş yerlərinin sayının artması ilə izah olunur. Yeni iş yerlərinin yaradılması bilavasitə sahibkarlığın inkişafı və kapital qoyuluşlarının həcminin artması ilə sıx bağlı proses olduğundan, hökumət iş adamları üçün ildən-ilə daha yaxşı imkanların yaradılmasına çalışır.

2013-cü il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə əlavə və dəyişikliklərlə ölkədə biznes mühitinin daha da yaxşılaşmasına təkan verməklə yeni iş yerlərinin açılmasında xüsusi çəkisi olan sənaye və texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslər 7 il müddətinə mənfəət, əlavə dəyər, əmlak və torpaq vergilərindən azad edilib. Məcəllədə sahibkarların qanuni mənafelərinin təminatına xidmət edən bir sıra mühüm müddəaların da əksini tapması, ümumilikdə, vergi ödəyicilərinin sayının artımına müsbət təsirini göstərir. Bunun nəticəsidir ki, təkcə 2013-cü ilin birinci yarısında 45 mindən çox fiziki və hüquqi şəxs fəaliyyətə başlayıb, vergi ödəyicilərinin ümumi sayı 521 minə çatıb.

Beynəlxalq Əmək Təşkilatı Azərbaycanda son illər müasir standartlara cavab verən layiqli iş yerlərinin sayının artdığı qənaətindədir. Layiqli iş yeri dedikdə, əsasən, yüksək əməkhaqqı və işləmək üçün maksimum əlverişli şəraitin yaradılması nəzərdə tutulur. Əgər son illərədək məqsəd, sadəcə, işsizliyin aradan qaldırılması üçün çoxsaylı iş yerləri açmaqdan ibarət idisə, indiki məqamda daha çox yüksək gəlirli, normal şəraitli iş yerlərinin açılması başlıca hədəf kimi qarşıya qoyulub.



Dövlət başçısının 2011-ci il 15 noyabr tarixli sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı» son illər əhalinin məşğulluğu sahəsində həyata keçirilən dövlət siyasətinin ardıcıllığını təmin edib.

Sənəddə biznes mühitinin yaxşılaşdırılması, sahibkarlığın inkişafı sahəsində kompleks tədbirlər nəzərdə tutulub. Habelə aidiyyəti dövlət qurumlarının, eləcə də İqtisadi İnkişaf, Vergilər, Əhalinin Sosial Müdafiəsi nazirliklərinin qarşısında mühüm vəzifələr müəyyənləşdirilib. Ölkədə makroiqtisadi sabitlik sahəsində əldə olunmuş nailiyyətlərin möhkəmləndirilməsi; yerli sənaye məhsullarının dünya bazarında rəqabət qabiliyyətinin yüksəldilməsi; ədalətli rəqabət mühitinin formalaşdırılması və inkişafı; təklif olunan işçi qüvvəsi ilə mövcud iş yerlərinin sayı arasında tarazlığı təmin edən şəraitin yaradılması; qeyri-formal məşğulluğun qarşısının alınması; işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin edilməsinə kömək edən xüsusi tədbirlərin həyata keçirilməsi; kiçik və orta sahibkarlığın inkişafının, eləcə də fərdi əmək fəaliyyəti ilə məşğul olanların iqtisadi həvəsləndirilməsi kimi mühüm tədbirlər Dövlət Proqramında mühüm hədəflər kimi diqqəti çəkir.

Proqramda konkret olaraq Vergilər Nazirliyinin qarşısında yeni iş yerlərinin yaradılması üçün regionlara investorların cəlb edilməsi məqsədi ilə investisiya imkanlarının araşdırılması, xarici investorlara təqdim ediləcək konkret investisiya təkliflərinin hazırlanması istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi; sahibkarlığın inkişafının sürətləndirilməsi məqsədi ilə təsərrüfat subyektlərinin qeydiyyatı sisteminin təkmilləşdirilməsi sahəsində müvafiq işlərin aparılması; ədalətli rəqabət mühitinin formalaşdırılması məqsədi ilə qanunsuz sahibkarlığın və vergi orqanında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olma hallarının qarşısının alınması istiqamətində tədbirlərin gücləndirilməsi və digər vəzifələr qoyulub.

Hökumət səviyyəsində həyata keçirilən tədbirlər, o cümlədən liberal vergi mühiti ölkədə məşğulluq strategiyasının uğurla reallaşdırılmasına təkan verir. 2013-cü il iyulun 1-i vəziyyətinə respublikada iqtisadi fəal əhalinin sayı 4720,9 min nəfər olub. Onlardan 4480,6 min nəfərini iqtisadi əmək fəaliyyəti ilə məşğul olan əhali təşkil edib. Muzdla işləyənlərin sayı 1480,0 min nəfər (o cümlədən iqtisadiyyatın dövlət bölməsində 896,2 min nəfər, qeyri-dövlət bölməsində isə 583,8 min nəfər) təşkil edib. Həmin dövr ərzində məşğulluq xidməti orqanları tərəfindən ölkə üzrə rəsmi işsiz statusu verilmiş şəxslərin sayı 37,2 min nəfər, işsizliyə görə müavinətin orta məbləği isə 239,1 manat təşkil edib.

Bundan başqa, Dövlət Məşğulluq Xidməti tərəfindən həyata keçirilən aktiv məşğulluq tədbirlərinin nəticəsi olaraq, hesabat dövründə 13777 nəfər vətəndaş münasib işlə təmin edilib, 1887 nəfər peşə hazırlığı kurslarına cəlb olunub. Qeyd edilən müddətdə 4423 müəssisədə aparılmış dövlət nəzarəti nəticəsində aşkar olunmuş 8054 sayda qanun pozuntusu ilə bağlı müvafiq tədbirlər həyata keçirilib. Habelə 355421 manat gecikdirilmiş ödəmələrin, o cümlədən 324732 manat gecikdirilmiş əməkhaqqının işçilərə ödənilməsi, qeyri-qanuni işdən azad edilmiş 16 nəfərin əvvəlki işinə bərpası, 5096 nəfər işçi ilə əmək müqaviləsinin bağlanılması təmin olunub.

**Samir MUSTAFAYEV**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Mühasibat və vergi uçotunun fərqli xüsusiyyətləri

## *Müvəqqəti və daimi fərqlər*

**Əvvəli ötən sayımızda**

Qeyd edildi ki, mühasibat uçotu və vergi uçotu arasındakı fərqləri yaradan amil vergi yığımını tənzimləyən vergi qanunvericilyinin tələbləridir. Fərqlərin yaranması haqqında sadə izahlara diqqət yetirək.

***Daimi fərqlər*** - bəzi gəlir və ya xərclərin maliyyə hesabatları məqsədləri üçün (mühasibat uçotunda) tanındığı halda vergi məqsədləri üçün (vergi uçotunda) heç vaxt tanınmadığına (nəzərə alınmadığına) görə yaranan fərqlərdir. Məsələn, mühasibat standartı maliyyə sanksiyasının xərclərə aid olunmasını heç vaxt inkar etmir, lakin Vergi Məcəlləsinə görə (maddə 109) vergi tutulan xərcə aid edilməsinə yol verilmir. Deməli, maliyyə sanksiyasının məbləği qədər iki uçotun xərc məbləğlərində daimi fərq yaranacaqdır. «Daimi» ona görə deyilir ki, bu fərqin təsirindən yaranan təxirə salınmış verginin məbləği müəssisənin fəaliyyət göstərdiyi bütün hesabat dövrlərində bu ildən növbəti ilə keçirilməklə daim malyyə hesabatlarında əks etdiriləcəkdir və heç vaxt silinməyəcəkdir.

***Müvəqqəti fərq*** - demək olar ki, bəzi xərclər maliyyə hesabatları məqsədləri üçün (mühasibat uçotunda) tanındığı halda vergi məqsədləri üçün (vergi uçotunda) də bütövlükdə tanınır (nəzərə alınır), lakin hər iki uçotda xərclərin müxtəlif tanınma dövrlərinin olmasından yaranan fərqdir. Məsələn, amortizasiya xərcləri. Müxtəlif amortizasiya metodları tətbiq olunduğuna görə eyni hesabat ilində fərqli amortizasiya məbləği hesablana və bunun da nəticəsində eyni hesabat ilində fərqli xərc məbləğləri yarana bilər, lakin aktivin amortizasiya hesablanan son hesabat ilinin yekununa görə hər iki uçotda həmin aktiv üzrə yığılmış amortizasiya məbləği eyni olacaqdır.

Ümumiyyətlə, fərqli məbləğlərin yaranması haqqında sadə formada göstərilən məntiqi ardıcıllıq aşağıdakı kimidir:

- Vergi Məcəlləsinin tələbinə görə bəzi gəlirlər və ya xərclər vergi uçotunda nəzərə alınmır.
- Lakin vergi uçotunda nəzərə alınmayan gəlir və ya xərclər mühasibat uçotunda nəzərə alına bilər.
- Bununla da iki uçot arasında gəlir və ya xərc əməliyyatlarının fərqli yekun məbləğləri yaranır.
- Fərqli gəlir və ya xərc əməliyyatları məbləğlərinə görə fərqli mənfəət məbləğləri (uçot mənfəəti və vergi mənfəəti) yaranır.
- Fərqli mənfəət məbləğlərinə görə fərqli mənfəət vergiləri (Vergi Məcəlləsinə uyğun olaraq ödənilməli cari mənfəət vergisi və mühasibat uçotunda göstərilən vergi xərcləri) yaranır.
- İki fərqli mənfəət vergisi arasındakı fərqdən təxirə salınmış mənfəət vergisi yaranır.
- Təxirə salınmış mənfəət vergisi təxirə salınmış vergi aktivi və ya təxirə salınmış vergi öhdəliyi kimi iki yerə bölünür.
- Nəhayət, bu o deməkdir ki, maliyyə hesabatlarinda göstərilən vergi xərci (uçot mənfəətinə vergi dərəcəsinin tətbiqi nəticəsində hesablanan vergi məbləği) bərabərdir. Vergi Məcəlləsinin tələblərinə uyğun olaraq faktiki hesablanmış mənfəət vergisinin məbləği (cari vergi) üstəgəl təxirə salınmış mənfəət vergisinin məbləği.

Xərclərlə bağlı fərqlərə aydınlıq gətirilməsi üçün Vergi Məcəlləsinin müddəalarından yaranan aşağıdakı nəzəriyyələrə diqqət yetirək. Məcəllədə vergitutma məqsədləri üçün xərclər əsasən 3 cür təsvir olunub:

*1. Gəlirdən çıxılan xərclər.* Bu xərclər həm mühasibat, həm də vergi uçotunda eyni qaydada, tam olaraq və heç bir məhdudiyyət qoyulmadan xərclərə aid edilir. Məsələn, işçilərə hesablanmış əməkhaqqı xərcləri, satılan malların alış dəyəri və s.

*2.Gəlirdən çıxılmayan xərclər.* Bu xərclər vergi uçotunda gəlirdən çıxılan xərclərə aid edilmir, lakin mühasibat uçotunda uçot xərclərinə aid edilə bilər. Məsələn, qeyri-kommersiya fəaliyyəti ilə bağlı xərclər, maliyyə sanksiyaları, cərimələr və s.

*3. Gəlirdən məhdudlaşdırılmaqla çıxılan xərclər.* Bu xərclər mühasibat uçotunda tam olaraq və heç bir məhdudiyyət qoyulmadan xərclərə aid edilir, lakin vergi uçotunda həmin xərclərin bir qismi məhdudlaşdırılmaqla xərclərə aid edilir. Məsələn, ezamiyyə xərcləri, əsas vəsaitlərin təmir xərcləri və s.

Mühasibat uçotu ilə vergi uçotu arasında yaranan fərqlər gəlirdən çıxılmayan və gəlirdən məhdudlaşdırılmaqla çıxılan xərclərlə əlaqədar olduğuna görə bu cür xərcləri təsvir edən Vergi Məcəlləsinin maddələri haqqında uçot işçiləri məlumatlı olmalıdırlar.

**Ardı növbəti sayımızda**

# İnvestisiya (kapital) qoyuluşlarının əmlak vergisinə təsiri

Qulu Soltanov,
sərbəst auditor

Müəssisələrin balansında (mülkiyyətində) uzunmüddətli maddi aktiv kimi qəbul edilən torpaq, tikili və avadanlıqlar (əsas vəsaitlər), başa çatdırılmamış tikintilər (kapital qoyuluşu), quraşdırılası avadanlıqlar və digər maddi aktivlər ola bilər. Aydındır ki, əmlak vergisinə cəlb edilən obyekt müəssisənin balansında olan əsas vəsaitlərdir.

Bəzən müəssisələrin balansında «başa çatdırılmamış tikinti obyektləri» adı altında əmlak uçota alınır. Bu əmlaka «əsas vəsaitlərə investisiya qoyuluşu» da deyilə bilər və bu əmlakın dəyəri vergi ödəyicisi tərəfindən vergi uçotunda çox hallarda «əsas vəsait» kimi qəbul edilmir. Praktikada elə hallar olur ki, tikintisi tam başa çatdırılmayan və ya başa çatdırıldıqdan sonra tikintidən istifadəyə icazə verən və qeydiyyata alan müvafiq icra hakimiyyəti orqanı tərəfindən sənədləri hazır olmayan binalardan istifadə olunur. Tikintinin müvafiq istismar sənədlərinin olmamasını və ya tikintinin tam başa çatdırılmamasını əsas gətirərək vergi uçotunda «əsas vəsaitlər» hesabına uçota alınmadan istismar olunan uzunmüddətli maddi aktivlərin əmlak vergisinə cəlb edilməsi sual doğura bilər.

Azərbaycan Respublikası Vergi Məcəlləsinin 197.1.3-cü maddəsinə görə, əmlak vergisi üçün vergitutma obyekti müəssisələrin balansında olan əsas vəsaitlərin orta illik dəyəridir. Əsas vəsait bu Məcəlləyə görə, həmçinin amortizasiya edilməli olan maddi aktivdir. Məcəllənin 114.2-ci maddəsində amortizasiya olunmayan aktivlər barədə göstərilib və bu maddədə göstərilməyən və Məcəllənin 114.3-cü maddəsinə uyğun gələn bütün digər maddi aktivlər amortizasiya olunanlardır. Məcəllənin müddəaları üzrə əsas vəsait anlayışının təhlilindən belə qənaətə gəlmək olar ki, vergitutma məqsədləri üçün binaların əsas vəsait kimi qəbul edilməsi onun istismarda olub-olmaması ilə əlaqələndirilə bilməz. Baxmayaraq ki, Məcəllənin 114.2.10-cu maddəsinə görə istismara verilməmiş anbarda olan əsas vəsaitlər amortizasiya olunmayandır, bina anbarlaşdırıla bilmədiyinə və yalnız daşınar əşyaların anbarlaşdırılması məntiqinə əsaslansaq, deməli, bu maddənin tələbi binalara aid edilə bilməz.

Mühasiblər bunu «Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması Qaydaları»nda göstərilən «əsas vəsait» anlayışı ilə də əlaqələndirə bilərlər. Qaydalarda «əsas vəsait» kiçik sahibkarlıq subyektinin mülkiyyətindəki istismarda, ehtiyatda olan, müvəqqəti dayandırılan, yaxud icarəyə verilən aktiv kimi göstərilir. Burada söhbət mülkiyyətində olanlardan gedirsə, mülkiyyəti tanıyan sənəd kimi müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən qeydiyyat sənədinin olmasının vacibliyi amili ortaya çıxır. Bu sənəd olmadıqda hər hansı daşınmaz əmlakın (tikili, bina) əsas vəsait kimi təsnifləşdirilməsi mümkün olmur və bu səbəbdən də əmlak vergisindən yayındırılmasına dolayısı ilə şərait yaranır.

Vergi Məcəlləsində bu məsələ üzrə «mülkiyyət» anlayışı nəzərdə tutulmayıb. Hətta Məcəllənin 197.1.3-cü maddəsində müəssisələrin məhz balansında olan əsas vəsaitlər vurğulanır. Bura müəssisənin mülkiyyətində olmayan lizinqə götürülən aktivləri də əlavə etmək olar.

Vergi Məcəlləsinin 114.3.8-ci maddəsində göstərilir ki, cari ildə faktiki dəyəri ödənilmiş istehsal təyinatlı kapital qoyuluşları, habelə lizinq obyekti olan əmlak üçün Məcəllənin 114.3.1, 114.3.2, 114.3.3 və 114.3.7-ci maddələrində nəzərdə tutulmuş illik amortizasiya normaları 2 dəfəyədək artırıla bilər. Deməli, bu tip kapital qoyuluşu (investisiya qoyuluşu) amortizasiya olunan aktiv olduğuna görə əsas vəsait hesab edilməlidir və həmin kapital qoyuluşunun qalıq dəyəri əmlak vergisinin hesablanmasında nəzərə alınmalıdır. Lakin «Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması Qaydaları»nda bu tip kapital qoyuluşu məbləğləri 08 №-li Kapital qoyuluşu hesabında uçota alınır və mühasiblər tərəfindən 01№-li hesabda uçota alınmadığına görə əmlak vergisinin hesablanmasında yayındırıla bilər. İstehsal təyinatlı kapital qoyuluşları olmayan digər kapital qoyuluşu nəticəsində istifadə edilən, lakin mülkiyyət hüququnu təsdiq edən sənədi olmayan tikililərin isə Vergi Məcəlləsinin 143-cü maddəsinin tələbi həcmində dəyərlə vergi uçotunda əsas vəsait kimi uçota alınması qanunsuz hesab edilməməlidir.

Göründüyü kimi, mühasiblər əmlak vergisinin hesablanması zamanı vergi uçotunun tələblərini mühasibat uçotu qaydalarında nəzərdə tutulan tələblərdən üstün tutmalı və vergilərin düzgün hesablanmasına nail olmalıdır.

bir maktubun izi ila

# Qanunu bilməmək məsuliyyətdən azad etmir

***Bazar iqtisadiyyatı şəraitində gəlir əldə etmək həvəsi nə qədər təbii görünsə də, bu istəyin qanunvericilik çərçivəsində gerçəkləşdirilməməsi ciddi problemlərə səbəb olur. Dövlət vergi xidməti orqanlarının sanksiyaları ilə üzləşmiş bir çox fiziki və hüquqi şəxslərin Vergilər Nazirliyinin yuxarı instansiyalarına ünvanladıqları inzibati şikayətlərin araşdırılması zamanı onların vergi öhdəliklərinə əməl etmədikləri qabarıq üzə çıxır. Beləlləri «vəziyyətdən çıxmaq» üçün qanunun tələblərindən xəbərsiz olduqlarını göstərsələr də, məsuliyyətdən sığortalana bilmirlər...***

Vergi ödəyicisi Natiq Tofiq oğlu Təhməzov 5 iyul 2013-cü il tarixli inzibati şikayətində sadələşdirilmiş vergi üzrə kameral qaydada hesablanmış 1618 manat vergi məbləğinin azaldılmasını xahiş etmişdir. Uçot baza məlumatları əsasında vergi ödəyicisinin 17 aprel 2008-ci il tarixdə onun eyniləşdirmə nömrəsi alaraq digər qruplara daxil edilməyən sair fərdi xidmətlərin göstərilməsi fəaliyyəti ilə məşğul olduğu müəyyənləşdirilmişdir. Həmçinin, Dövlət Gömrük Komitəsinin məlumatlarına əsasən, vergi ödəyicisinin 2012-ci il ərzində respublikaya ümumi dəyəri 80.900,23 manat olan 2 ədəd HAVO markalı yük maşını idxal etdiyi məlum olmuşdur. Lakin vergi ödəyicisi 2012-ci ilin 2-ci rübü üzrə təqdim etdiyi sadələşdirilmiş vergi bəyannaməsində dövriyyə məbləğini və işçi sayını göstərməmişdir. Eyni zamanda, vergi ödəyicisinin təsərrüfat subyektinin (obyektinin) vergi orqanında qeydiyyatda olmaması idxal edilmiş malların təqdim edilməsi kimi qiymətləndirilmişdir.

Təqdim olunmuş bəyannamələrdə kənarlaşmaların mövcudluğu səbəbindən 22 fevral 2013-cü il tarixdə vergi ödəyicisinə «Kameral vergi yoxlaması üçün zəruri olan sənədlərin (məlumatların) tələb edilməsi haqqında» uyğunsuzluq məktubu göndərilsə də müvafiq sənədlər, habelə yazılı izahat təqdim edilməmişdir. Nəticədə vergi orqanı vergi ödəyicisinə 2012-ci ilin 2-ci rübü üçün sadələşdirilmiş vergi üzrə 1618 manat əlavə vergi məbləği hesablamış, 11 mart 2013-cü il tarixli «Vergilərin hesablanması barədə Qərar»ı ona göndərmişdir.

Müraciətin ətraflı araşdırılması üçün vergi ödəyicisi iyulun 19-da məktubla Vergilər Nazirliyinə dəvət edilmiş, birgə araşdırmada onun nümayəndəsi Elçin Adil oğlu Mustafayev iştirak etmişdir. Sonuncu araşdırmaya təqdim etdiyi izahatda Natiq Təhməzovun qanunvericiliyin tələblərini bilmədiyini, nəqliyyat vasitələrinin əslində digər şəxslər tərəfindən respublikaya idxal edildiyini göstərmişdir. İzahatda qeyd olunmuşdur ki, digər şəxslər tərəfindən idxal edilmiş yük avtomobillərinin gömrük orqanlarında Natiq Təhməzovun adına rəsmiləşdirilməsinə görə ona 10 min manat (hər maşina görə 5 min manat) vəsait ödənilmişdir. İzahatda nəqliyyat vasitələrinin əsl idxalçılarının müəyyənləşdirilməsinin qeyri-mümkünlüyü, bu kimi sövdələşmələrin birinci dəfə olduğu iddia edilmişdir. Bu da qeyd olunmuşdur ki, şifahi razılıq əsasında respublikaya öz adına yük maşınlarının idxalına razılıq vermiş vergi ödəyicisi Natiq Təhməzov bunun müqabilində aldığı vəsaitə görə ödəniş qəbzi təqdim etmək imkanında olmasa da həmin məbləğdən sadələşdirilmiş vergini ödəməyə hazırdır.

Araşdırmalar zamanı vergi ödəyicisi tərəfindən idxal edilmiş nəqliyyat vasitələrinin alqı-satqısı ilə bağlı müqavilə, habelə ödəmə sənədləri barədə təsdiqedici sənədlərin olmadığı da müəyyənləşdirilmişdir. Bundan başqa, vergi ödəyicisi Natiq Təhməzov kameral qaydada hesablanmış vergi məbləği ilə əlaqədar 19 mart 2013-cü il tarixdə 2 saylı Ərazi Vergilər Departamentinə müraciət etmiş, lakin təqdim etdiyi sənədlər araşdırma zamanı təsdiqini tapmadığı üçün hesablanmış kameral vergi məbləği qüvvədə saxlanılmışdır.

Ümumilikdə, Vergilər Nazirliyinin yuxarı instansiyalarında aparılmış araşdırmaların yekunu olaraq qərara gəlinmişdir ki, vergi ödəyicisinin inzibati şikayəti təmin edilməməlidir. Belə ki, Gömrük Məcəlləsinin 162-ci maddəsinə əsasən, yalnız qanunvericiliyə uyğun yaradılmış və gömrük daşıyıcısı kimi fəaliyyət göstərmək üçün gömrük işini aparan icra hakimiyyətindən icazə almış hüquqi şəxslər gömrük daşıyıcısı ola bilərlər. Gömrük daşıyıcısı ilə mallar və onlara aid sənədləri göndərənlər arasında qarşılıqlı münasibətlər müqavilə əsasında qurulmalıdır.

Vergi Məcəlləsinin 37.3-cü maddəsində isə göstərilir ki, kameral yoxlama aparmaq üçün vergi ödəyicisindən təqdim edilmiş bəyannamə ilə bağlı sənədlərdə olan məlumatlar arasında ziddiyyət və ya səhv aşkar edildikdə, vergi orqanı vergi ödəyicisindən əlavə məlumat, sənəd və izahat tələb edə bilər. Məcəllənin 94.0.2-ci maddəsinə əsasən, vergi orqanının hesablamalarının səhv olduğunu sübut etmək vəzifəsi vergi ödəyicisinin üzərinə düşür.

Qanunvericiliyin bu və digər tələbləri nəzərə alınmaqla, vergi ödəyicisi Natiq Tofiq oğlu Təhməzovun sadələşdirilmiş vergi üzrə kameral qaydada hesablanmış 1618 manat vergi məbləğinin ləğvi barədə inzibati şikayəti təmin edilməmişdir.

**S.MUSTAFAYEV**




Vergilər Nazirliyinin
TELEFON XİDMƏTİ
195
www.taxes.gov.az
Contact Centre Certified EN 15838


vergi təqvimi

| SENTYABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23/30 | 27 | 28 | 29 | 30 | 28 | 29 |

**Qeyd:** Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.

**Ödənilən vergi:**

20 sentyabr - «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübüdür.
Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablamalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün, hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Sığorta müqaviləsi vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı olan digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürülməlidirlər.

beynəlxalq panoram

# Fransa «Qara siyahı» mexanizmindən istifadə edəcək

*Fransa Respublikası vergidən yayınma ilə mübarizə tədbirləri çərçivəsində rəsmi Paris ilə əməkdaşlıqdan imtina edən yurisdiksiyalara münasibətdə «qara siyahı» mexanizmindən istifadə etmək niyyətindədir.*



Fransa hökuməti bildirib ki, 2015-ci ilə qədər onunla vergi sahəsində avtomatik informasiya mübadiləsinə dair saziş bağlamayacaq ölkələr «offşorların qara siyahısı»na salınacaq. Hazırda belə namizəd ölkələrin siyahısına Lüksemburq və İsveçrə düşmək ərəfəsindədir. «Qara siyahı»nın hazırlanması Fransa Respublikasının Vergi Məcəlləsinin 238-ci maddəsində nəzərdə tutulub.

Artıq bir sıra ölkələr əməkdaşlığa maraq göstərirlər. İsveçrənin Federal Şurası bildirib ki, İƏİT-nin hazırladığı qlobal standartlara dair qərarlar üzərindən «fəal əməkdaşlıq etməyə» hazırdır. İsveçrə hökuməti bildirib ki, əgər bu standartlar G20 və bütün beynəlxalq maliyyə mərkəzləri tərəfindən tərəfindən tanınaraq tətbiq edilərsə, o zaman müvafiq mexanizmlər İsveçrə hüquq qanunvericiliyinə də daxil ediləcək.

Lüksemburqa gəlincə, bu ölkə «Əmanətlər üzrə gəlirlərin vergiyə cəlb edilməsi haqqında» Avropa Birliyinin təlimatına əsasən 2015-ci ilin yanvarından avtomatik informasiya mübadiləsini aparmaq niyyətindədir.

Fransa qanunvericiliyinə əsasən, əgər şirkətin törəmə müəssisəsinin qeydiyyatı və ya faktiki fəaliyyət göstərdiyi ərazi offşor zonaların siyahısındadırsa, o zaman Fransada yerləşən ana şirkət xüsusi vergi rejimindən istifadə edə bilməz. Qanunvericiliyə əsasən, xüsusi vergi rejimində törəmə müəssisənin ana şirkətin xeyrinə dividentlər formasında ödəmələrinin 95%-i korporativ vergidən azad edilə bilər. Bundan başqa, vergilər və yığımlar haqqında qanunvericiliyə əsasən, Fransa ilə əməkdaşlıq etməyən ölkələrə divident, faiz və royalti ödənişləri 55%-lik dərəcə ilə vergiyə cəlb olunur.

# Amerika şirkətləri vergi yükünü azaldır

*Ölkədə mövcud olan vergi endirimləri və güzəştlər sistemi ABŞ-ın iri şirkətlərinin vergi öhdəliklərini əhəmiyyətli şəkildə aşağı salır. Hazırda onların orta vergi dərəcəsi 12,6%-i ötmür.*

ABŞ hökumətinin Audit Departamentinin yeni hesabat məlumatlarına əsasən, ölkənin böyük şirkətlərinin (bura aktivlərinin dəyəri 10 milyon dollardan çox olan bütün korporasiyalar daxildir) ümumi vergi öhdəlikləri orta hesabla rəsmi federal vergi dərəcəsinin təxminən üçdə biri həcmindədir. Xatırladaq ki, ABŞ-da korporativ verginin dərəcəsi hazırda 35% təşkil edir.

Hesabatda göstərilir ki, 2010-cu maliyyə ilinin ümumi təhlilinə əsasən, ölkə üzrə belə şirkətlərə federal vergi yükünün orta dərəcəsi təxminən 12,6% təşkil edib və hətta yerli büdcələrə, o cümlədən ABŞ-ın xaricində Amerika şirkətləri tərəfindən aparılan vergi ödəmələri də diqqətə alınarsa, o zaman belə böyük şirkətlər üçün vergi dərəcəsi 17,4%-i ötmür.

Ekspertlərin fikrincə, vergi yükünün əhəmiyyətli azalması korporasiyaların bütün mümkün vergi endirimləri və güzəştlərindən maksimum istifadə etməsilə bağlıdır.

Şirkətlər həmçinin aqressiv vergi planlaşdırması metodlarından və transfert qiymətqoymasından da yararlanırlar.



# Korporativ verginin dərəcəsi aşağı salınacaq

***Vyetnam hökuməti ölkədə işgüzar fəallığın saxlanması üçün korporativ vergi yükünün azaldılmasına razılıq verib. Milli Assambleya vergi qanunvericiliyinə bir sıra dəyişiklikləri təsdiq edib. Bu dəyişikliklərə əsasən, 2014-cü ilin yanvarından korporativ gəlir vergisinin dərəcəsi 25%-dən 22%-ə, 2016-cı ildən isə 20%-ə qədər azaldılacaq.***

Vyetnam iqtisadiyyatının əsasını təşkil edən kiçik və orta müəssisələr üçün bu verginin dərəcəsi artıq cari ildən 20%-ə qədər azaldılacaq, 2016-cı ildə isə 17%-ə endiriləcək. Bundan başqa, qəbul edilən dəyişikliklərə əsasən, müəssisələr istehsal və ticarət zərərlərinin məbləğini sonrakı dövrlərə keçirmək və ya onları vergitutulan gəlirlərdən çıxmaq hüququ alıblar.

Vyetnam hökuməti bəyan edib ki, müəssisələrin vergi yükünün azaldılması ölkə büdcəsinin gəlirlərinin aşağı düşməsinə gətirəcək, lakin bu addım ölkədə iqtisadi fəallığın artımı üçün zəruridir.



# ABŞ korporasiyaları offşorlarda 127 milyard dollar vergi gizlədirlər

*Birləşmiş Ştatların 55 korporasiyası offşor zonaların köməyi ilə 127,5 milyard dollar həcmində vergi ödəmələrini minimallaşdırmağa nail olublar. Bu barədə «Vətəndaşlar ədalətli vergilər naminə» qeyri-hökumət təşkilatının (Citizens for Tax Justice, CTJ) tədqiqatlarında deyilir.*

Təşkilat öz tədqiqatlarında offşor hesablarda vəsaitlərin həcmi barədə hesabat vermiş şirkətlərin informasiyasına istinad edib. Son vergi ilinin nəticələrinə görə, 55 korporasiya, o cümlədən Dell, Nike, Microsoft və Apple kimi şirkətlər offşor hesablarda 453 milyard dollar saxlayıblar. İctimai təşkilat vurğulayır ki, bu vəsaitlərin ABŞ-a qaytarılacağı halda, korporasiyalar təxminən 28% korporativ vergi ödəməli olacaqlar. Beləliklə, hesablamalara görə, offşor zonaların mövcudluğu ucbatından ABŞ xəzinəsi 127,5 milyard dollar büdcə gəlirindən məhrum olub.

Təşkilat qeyd edir ki, müvafiq məlumatlar yalnız 55 şirkətin açıq hesabatlarından götürülüb. Bütövlükdə isə offşor zonalarda ABŞ-ın 290 korporasiyası pul vəsaitləri saxlayır. Tədqiqata salınmamış qalan 235 şirkət offşor hesablarda təxminən 1,3 trilyon dollar saxlayırlar.

Vergi öhdəliklərinin minimallaşdırılması, vergidən yayınmadan fərqli olaraq, cinayət hesab edilmir. Bununla belə, hökumət vergi minimallaşdırılmasını qeyri-etik və qanunun ruhuna zidd təcrübə adlandırır. ABŞ-da vergi ödəmələrinin minimallaşdırılması mövzusu Senatın «Apple» şirkətini 74 milyard dollar həcmində vergilərin ödənilməsindən yayınmaqda ittiham etməsindən sonra daha da aktuallaşıb. Vergilərin minimallaşdırılması ilə əlaqədar «Google» və başqa qlobal şirkətlər ciddi tənqidə məruz qalırlar.

Korporasiyalar qanunları pozmadıqlarını və bir qayda olaraq, maksimal səmərəli vergiödəmə sxemlərindən istifadə etməyə çalışdıqlarını qeyd edirlər.

# Vergi informasiyalarının mübadiləsi üçün yeni standart hazırlanacaq

ABŞ vergi informasiyalarının mübadiləsi üçün «Xarici hesablar barədə vergi tələbləri haqqında» qanunun əsasında yeni beynəlxalq standart hazırlamağı təklif edir. Bunu ölkə prezidentinin beynəlxalq iqtisadiyyat üzrə məsləhətçisi Kerolayn Atkinson bildirib.

K.Atkinson qeyd edib ki, Vaşinqtonun dünya cəmiyyətindən bir sıra gözləntiləri var. Bu, xüsusilə vergi ödəmələrindən yayınma halları, eləcə də milli qanunvericilikdəki boşluqlardan istifadə edərək gəlirlərin aşağı vergitutma rejimi olan yurisdiksiyalara keçirilməsinin qanuni sxemləri ilə bağlı olan məsələlərdir.

Prezident müşavirinin sözlərinə görə, birinci məsələnin həlli üçün Barak Obamanın təşəbbüsü ilə 2010-cu ildə qanun (FATCA) qəbul edilib. O zamandan bəri ABŞ Maliyyə Nazirliyi vergi ödəmələrindən yayınma hallarının aşkar edilməsi istiqamətində digər ölkələrin hökumətləri ilə əməkdaşlıq prosesində bu qanundan istifadə edir. ABŞ FATCA standartının tətbiqi sferasını genişləndirmək üçün gələcəkdə G8 ölkələri ilə sıx əməkdaşlıq etmək niyyətindədir.




krossvord

**Yuxarıdan aşağı:**

1.Gürcü xörəyi; 2.Mərakeşin paytaxtı; 3.Rusiya Federasiyasında şəhər; 4.XIX əsrdə yaşamış böyük Azərbaycan şairi; 5.Armud növü / spirtsiz içki; 6.İdman avtomobili markası; 7.Bir sıra ispan və portuqaldilli ölkələrdə xırda pul vahidi; 12.İran şairi Əbülqasım Firdovsinin məşhur əsəri; 13.ADİDAS şirkətinin təsisçisinin soyadı; 15.Cənubi Amerikada çay. Əsasən Venesueladan keçir və Atlantik okeanına tökülür; 16.Çətin, mürəkkəb tapşırıqların həllini tapan və sevincini bildirən Arximed tərəfindən səslənən kəlam; 18.Tacikistanın paytaxtından 70 km cənub-şərqdə yerləşən şəhər; 20.Çoxkomponentli partlayıcı maddə; 21.Yeraltı yol və ya keçid.

**Soldan sağa:**

1.Orta Şərqdə tarixi vilayət; 5.Yazıda istifadə olunan işarə; 8.«Gözəlçə» filminin baş qəhrəmanını oynayan aktrisanın soyadı; 9.N.Gəncəvinin baş qəhrəmanlarından biri; 10.Səkkiz nəfərdən ibarət musiqi qrupu; 11.«Həm ziyarət, həm ticarət» filminin qəhrəmanının adı; 12.Unikal, təkrarolunmaz bədii əsər; 14.Stolüstü oyun; 17.«Kür» Olimpiya Avarçəkmə Bazasının yaradıcısı və akademik avarçəkmə üzrə əməkdar məşqçinin soyadı (1923-2002); 19.Rusiyanın Sverdlovsk vilayətində şəhər; 24.Avstriyalı psixoloq, psixiatr və mütəffəkkirin soyadı (1870-1937); 25.Dienlər sinfindən olan doymamış karbohidrogen. Polimerizasiyası nəticəsində kauçuk əmələ gəlir; 26.Kəlbəcər rayonunda kənd; 27.İsa peyğəmbərin davamçıları, həvarilər.

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:**

1.Akula; 2.Smeta; 3.SİTA; 4.Enriko *(Karuzo)*; 5.Kordova; 6.Blokada; 9.Bazar; 11.Qut; 13.Metro; 14.Ekvador; 15.İntriqa; 17.Tue; 18.Hokkey; 21.Kvant; 22.Motiv; 23.Atom.

**Soldan sağa:**

1.Assistent; 5.Kob; 7.Uvertüra; 8.Trio; 10.Aqat; 12.Oklahoma; 14.Etilen; 16.Palata; 19.Vaterloo; 20.Akim; 24.Dair; 25.Ekstrakt; 26.Rua; 27.Leytmotiv.

Tərtib etdi: Rafael

idman

# Elxan Məmmədov Braziliyada tarix yazdı

*Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən cüdo üzrə dünya çempionatı Azərbaycan milli komandası üçün tarixi uğurla yekunlaşıb. 100 kq çəki dərəcəsində mübarizə aparan təmsilçimiz Elxan Məmmədov qızıl medal qazanıb.*




Bununla da E.Məmmədov ölkəmizin cüdo tarixində ilk dəfə dünya çempionu olub. Özü də 31 yaşlı idmançımız fəxri kürsünün ən yüksək pilləsinə əvvəllər çıxış etdiyi 90 kq çəki dərəcəsində yox, yeni - 100 kq çəkidə qalxıb.

Cüdoçumuz mübarizəyə 1/16 final mərhələsindən başlayıb. O, əvvəlcə Or Sassonu (İsrail) üstələyib, 1/8 finalda David Alarzaya (İspaniya) qalib gəlib. 1/4 finalda Takaşi Ononu (Yaponiya) da üstələməyi bacaran təmsilçimiz yarımfinalda Soyib Kurbanovdan (Özbəkistan) üstün olub.

Finalda Elxan Məmmədov 2012-ci il London Yay Olimpiya Oyunlarının bürünc mükafatçısı Henk Qrolla (Hollandiya) üz-üzə gəlib. Görüşün əvvəli cüdoçumuz üçün heç də yaxşı başlamayıb. Hakim ona qeyri-fəal mübarizə apardığı üçün xəbərdarlıq edib. Bundan sonra fəallaşan təmsilçimiz rəqibinə «vazari» fəndi tətbiq edərək hesabda irəli çıxıb. E.Məmmədov bu üstünlüyünü sonadək əldən verməyib və karyerasında ilk dəfə dünya çempionu olub.

Qeyd edək ki, əvvəllər cüdoçularımızdan Nazim Hüseynov və Elnur Məmmədli Olimpiya çempionu olsalar da, dünya çempionatlarında ən yaxşı halda gümüş medalla kifayətləniblər. Elxan Məmmədov isə yeni baş məşqçi Peter Zayzenbaherin rəhbərliyi altında tarix yazıb. Xatırladaq ki, Braziliyadakı dünya çempionatında daha öncə Orxan Səfərov (60 kq) bürünc medal qazanıb. Beləliklə, millimiz bu mundiali 1 qızıl, 1 bürünc medalla başa vurub.

# Azərbaycan idmançısı dördqat dünya çempionudur

*Ölkəmizin kayak və kanoe üzrə milli komandası Almaniyanın Duysburq şəhərindəki dünya çempionatını 1 medalla başa vurub. 1 nəfərlik qayıqla (C-1) 200 metr məsafəyə yürüşdə qızıl medala sahib olan Valentin Demyanenko karyerasında 4-cü dəfə kanoe üzrə planetin ən güclüsü olduğunu sübuta yetirib.*




30 yaşlı idmançımız final yürüşündə finişə 38,462 saniyəyə çataraq ən yaxın rəqibi, rusiyalı İvan Ştılı 0,255 saniyə geridə qoyub. Bürünc medala isə 39,060 saniyə nəticə ilə ispaniyalı Alfonso Benavides Lopes de Ayala layiq görülüb. 2 nəfərlik kanoe qayığı (C-2) ilə 500 metr məsafəyə yürüşdə Sergey Bezuqlıy - Aleksey Kupin dueti də medala yaxın olub. Lakin onlar əsas finalda finişə 1 dəqiqə 46,094 saniyəyə çataraq, 5-ci yerlə kifayətləniblər.

Ümumiyyətlə, dünya çempionatında 78 ölkədən 956 idmançı mübarizə aparıb. Azərbaycanı 1 kayakçı və 6 kanoeçi təmsil edib. Cəmi 30 ölkənin medal qazandığı nüfuzlu yarışda millimiz medal əyarında 15-ci olub.

# Milli komandanın heyəti açıqlandı

*İsrail və Azərbaycan milli komandaları sentyabrın 7-də Ramat Gan şəhərində qarşılaşacaqlar. AFFA-dan bildirmişlər ki Braziliyada təşkil olunacaq futbol üzrə 2014-cü il dünya çempionatının seçmə mərhələsi çərçivəsində keçiriləcək bu oyuna hazırlıq məqsədi ilə millimiz sentyabrın 4-dən etibarən Ramat Gan şəhərində təlim-məşq toplanışında olacaqdır.*

Millimizin heyətinə Kamran Ağayev («Bakı»), Anar Nəzirov («Sumqayıt»), Səlahət Ağayev («İnter»), Rəşad Sadıqov («Qarabağ»), Volodimir Levin («Qəbələ»), Rasim Ramaldanov («Xəzər-Lənkəran»), Mahir Şükürov («Neftçi»), Elnur Allahverdiyev («Xəzər-Lənkəran»), Maksim Medvedev («Qarabağ»), Ufuk Budak («Eskişehirspor», Türkiyə), Bədavi Hüseynov («Qarabağ»), Qara Qarayev («Qarabağ»), Ruslan Abışov («Rubin», Rusiya), Elhad Nəziri («Rəvan»), Rəşad Sadiqov («Neftçi»), Rahid Əmirquliyev («Xəzər-Lənkəran»), Cavid Hüseynov («Bakı»), Araz Abdullayev («Neftçi»), Əfran İsmayilov («Bakı»), Vüqar Nadirov («Qarabağ»), Rauf Əliyev («Bakı»), Cihan Özkara («Sivasspor», Türkiyə), Rüfat Dadaşov («Kaizerslautern II», Almaniya) və Ruslan Qurbanov («Sumqayıt») dəvət olunmuşlar.

mozaika

## Mobil telefonların uzaq məsafəyə tullanılması üzrə çempionat

maraqlı

*Mobil telefonların uzaq məsafəyə tullanılması üzrə növbəti dünya çempionatı Finlandiyanın Savonlinna şəhərində keçirilib.*

«ICTnews.az» elektron xəbər xidməti «hi-tech.newsru.com» saytına istinadən bildirir ki, kişilər arasında birinci yerə fin Rik Xavarinen layiq görülüb. O, mobil telefonu 97,73 metr məsafəyə tullayıb.

Qadınlar arasında isveçli Os Lundqren mobil telefonu 40.41 metr uzaqlığında məsafəyə tullamaqla birinci yerə layiq görülüb.

Xatırladaq ki, mobil telefonların uzaq məsafəyə tullanılması üzrə yarış ilk dəfə 2000-ci ildə Savonlinna şəhərində keçirilib. İdeyanın müəllifi Kristen Lunddur. Çempionatda istənilən şəxs iştirak edə bilər: əsas tələb odur ki, mobil telefonun çəkisi 220-400 qram aralığında olmalıdır.

## 600 maşın qiymətinə nömrə nişanı




Məlumat üçün bildirək ki, Birləşmiş Krallıqda bu pula 600 ədəd «Ford Fiesta», 75 «Range Rover» və ya altı «Bugatti Veyron» almaq olar. Yeri gəlmişkən, bu qeyri-adi nömrə nişanı məhz Kanın şəxsi «Bugatti»sini bəzəyir. Biznesmen onu 2008-ci ildə bundan xeyli ucuz, lakin yenə də böyük pula - 440 min funt-sterlinqə alaraq özünəməxsus Britaniya rekordu təyin etmişdi.

F1 - Kanın yığdığı unikal nömrə nişanları kolleksiyasının ən sevimli, lakin yeganə olmayan nümunəsidir. Məsələn, tüninq şirkətinin başçısına məxsus «SLR McLaren»in nömrə nişanını 200-300 min funt-sterlinq dəyərində qiymətləndirirlər.

«Khan Design tüninq» şirkətinin banisi və sahibi Afzal Kan ona məxsus olan F1 nömrə nişanını satmaqdan imtina edib. Gündəlik Britaniya qəzeti «Daily Mail»in bildirdiyi kimi, potensial alıcı həmin nömrə nişanı üçün 6 milyon funt-sterlinq xərcləməyə hazır idi.

Baş tutmayan saziş haqqında Kanın mətbuat katibinin şərhi kifayət qədər qısa olub: «Bizə F1 nömrəli nişan üçün bir neçə milyon funt təklif etdilər, amma biz təklifi rədd etdik. Cənab Kanın öz sevimli nömrəsiylə ayrılmaq arzusu yoxdur».

## Sazan balıqları axtarışa hazırlanır

Türkiyə KİV-də yayılmış xəbərə görə, belçikalı alimlər itlər kimi sazan balıqlarının da şərti refleksləri vasitəsilə dənizə atılmış və ya boğulmuş insanların cəsədlərini tapa biləcəklərinə inanırlar. Liege Universitetinin nümayəndəsi Pons itlərin qoxu vasitəsilə izi axtarmaq üçün öyrədildikləri-ni, qoxu qaynağını tapdıqda mükafatlandırıldığını nümunə gətirərək eyni üsulun sazan balıqlarına da tətbiq edilə biləcəyini demişdir. Ancaq dənizdə izləməyin çətin olacağı üçün onların üzərində ötürücülərin yerləşdiriləcəyini bildirmişdir. Sazan itaətcil, dözümlü, oksigenin az olduğu aşağı temperaturlu sularda yaşamaq qabiliyyətli balıq olduğuna, yetişdirilməsinin və bədəninə ötürücü yerləşdirilməsinin nisbətən asanlığına görə seçilib.



Belçikalı alimlər hazırda təlim keçmək üçün cəsəd qoxusu hopdurulmuş yeməklərlə bala sazan balıqlarının yetişdirilməsi və artırılması üzərində işləyirlər. Araşdırma müvəffəqiyyətli olarsa, sazan münaqişələr və ya sunami baş verdiyi sularda axtarış işini «üzərlərinə götürəcəklər».

## İnsanların fikirləri «oxunacaq»

elm

*Niderlandın Neymeqen Universitetinin mütəxəssisləri insanların fikrini hərfi mənada oxumağa imkan verən texnologiyanın hazırlanması haqqında məlumat veriblər.*



Bunun üçün maqnit-rezonans tomoqrafiyası və xüsusi proqram təminatına malik kompüterdən istifadə olunur. «ICTnews.az» elektron xəbər xidməti «ict.az» saytına istinadən bildirir ki, xüsusi alqoritm insanların müəyyən mətni oxuyarkən hansı hərfə baxdığını təyin etməyə imkan verir.

Texnologiya hələ kifayət qədər asta işləyir və insan müəyyən mətni adi sürətlə oxuduqda fikri «oxumaq» imkanına malik deyil. Alimlər əmindirlər ki, bir müddət sonra bu texnologiyadan təkcə mətnləri deyil, təsvirləri də tanımaq üçün istifadə etmək mümkün olacaq.

## «Skype»ın 10 yaşı tamam oldu

texnologiya

«Skype» internet-telefoniya xidməti 10 yaşını qeyd edir. Hazırda təxminən hər üç beynəlxalq zəngdən biri «Skype» üzərindən həyata keçirilir. Sözügedən xidmətin yaradıcıları - isveçli Niklas Zennstrom və danimarkalı Yanus Fris onu 2003-cü ildə 3,1 milyard dollar qiymətinə Ebay şirkətinə sataraq işdən uzaqlaşıblar. Sonuncu internet-telefoniya xidməti vasitəsilə gəlir əldə etsə də, lakin onu ümumi struktura inteqrasiya edə bilməyib.

Milli.az bildirir ki, «Skype»ın ilk server kommutasiyası 2003-cü il avqustun 29-da Tallinndə işə salınıb və o zaman şirkət sadəcə işləyən ödənişsiz internet-telefon şüarını irəli sürüb.

«Telegeography»nin məlumatlarına əsasən, «Skype» artım tempinə görə bütün ənənəvi telefon rabitəsi operatorlarını üstələyir.

İnternet-telefoniya xidmətinin əməkdaşları deyiblər ki, onların həlli beynəlxalq rabitə sisteminə öz təsirini göstərib, lakin 2008-ci ildən artım tempi zəifləyib, halbuki şirkət daha böyük uğur qazana bilərdi.

2005-ci ildə «Skype» mətn mesajlarını tətbiq etməyə başlayıb. Lakin şirkət ani mesaj dünyasında üstünlük əldə edə bilməyib, hərçənd ki, 2007-ci ildə mesajlar trafikin həcminə görə səsli ünsiyyəti üstələyib. «Videoünsiyyət həmişə əsas, mətn mesajları isə ikinci olub», - «Skype»ın sabiq mühəndisi Xenn Rukel problemi şərh edərkən belə deyib. Onun sözlərinə görə, şirkətin ən böyük korporativ səhvi onunla bağlı olub ki, o, yalnız səsli zənglər vasitəsilə gəlir əldə edib, başqa xidmətlər isə kommersiyalaşdırma üçün lazımınca inkişaf etdirilməyib.

**Müdriklər deyib ki...**

***«Ağıllı insan heç vaxt üzr istəmək məcburiyyətində qalmaz»***

**Ralf Emerson (1803-1882)**

